www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 aprel 2019-cu il Bazar ertəsi № 79 (7249) Qiymәti 60 qəpik

**Xəbər**

## İsmayıllıda ağır qəza: 3 ölü

yazısı səh.14-də

**Gündəm**

### Çevik hökumət modelinə doğru: nazirlər kabinetlərini boşaldır



Əgər əvvəllər bir nazirin, komitə sədrinin hadisə yerinə gəlməsi, vətəndaşların qarşısına çıxması böyük bir olay kimi qiymətləndirilirdisə, indi bu, adi hala

yazısı səh.4-də

### Azərbaycanla Aİ arasındakı saziş ətrafında müəmma çözülür: XİN-dən açıqlama

yazısı səh.8-də

### Alman şirkəti Bakının Baş planını aldı- 6,3 milyon dollara nələr dəyişəcək?

yazısı səh.10-da

### Bankların kredit faizləri gündəmdə-yeni qərar gözlənilir

yazısı səh.11-də

### Əfvlə azad olunan gənc fəal universitetə bərpa olunmur

yazısı səh.3-də

### Azərbaycanda biznesin ən gəlirli və ən problemli sahəsi-şadlıq evləri

yazısı səh.10-da

### Yataqxanalarda yanğın müəmması: sakinlər rəsmilərlə razılaşmır

yazısı səh.3-də

### "90-cı dəqiqə...və qol!!!...44 min uduzdum" - "Topaz"dan reportaj

yazısı səh.12-də

### İcra başçısının xanım müavini Elinanın intiharına görə dindirildi

yazısı səh.6-da

### Pulsuz internet təhlükəsiz deyil, bəs nə edək?

yazısı səh.13-də

### Qar uçqununa düşən hərbçilərdən birinin meyiti tapıldı

yazısı səh.14-də

# BU GÜN MOSKVADA KRİTİK QARABAĞ GÖRÜŞÜDÜR-"LAVROV PLANI" YENƏ MASADA

Azərbaycan və Ermənistan XİN başçıları Sergey Lavrovun iştirakı ilə Rusiya paytaxtında nələri müzakirə edəcək?; Elmar Məmmədyarov "mənimlə anlaşmayan Zakir Həsənovla anlaşmalı olacaq" xəbərdarlığından sonra ilk dəfə Mnatsakanyanla qarşı-qarşıya gəlir; **politoloq:** "Nazirləri görüşdürürlər ki, heç olmasa payıza qədər toqquşma ehtimalını önləsinlər"



yazısı səh.9-da

## "Assanc hadisəsi" Zamirə Hacıyevanın həbsi təhlükəsini artırdı

"Dumanlı Albion" varlıların cənnətindən sürətlə uzaqlaşmağa başlayıb, bu isə polis nəzarətində olan azərbaycanlı bankir xanımına yaxşı heç nə vəd etmir...

yazısı səh.7-də



*Tofiq Zülfüqarov:*

### "Yaqland ya axmaqdır, ya da satılmış siyasətçi"

yazısı səh.5-də



### Kafedə döyülmə xəbəri yayılan Kəramətdən qalmaqallı açıqlamalar

yazısı səh.12-də



### Pənah Hüseynin sensasion iddialarına reaksiya

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 79 (7249) 15 aprel 2019

# Zukerberq "Facebook" rəhbərliyindən uzaqlaşdırılır?



**"Facebook" səhmdarlarının illik toplantısında Mark Zukerberqin İdarə Heyətinin sədri postundan uzaqlaşdırılması məsələsi yenidən müzakirəyə çıxarılacaq.**

"Business Insider" yazır ki, söhbət investorların təklifi əsasında strukturun dəyişdirilməsindən gedir.

Zukerberqin vəzifəsindən kənarlaşdırılması məsələsi səsverməyə çıxarılacaq. Lakin Zukerberq səhmlərin 60 faizinə malik olduğu üçün səsvermənin onun əleyhinə bitəcəyi real görünmür.

Qeyd edək ki, "Facebook" səhmdarlarının illik toplantısı mayın 30-da keçiriləcək.

Onu da xatırladaq ki, Zukerberq 2012-ci ildən "Facebook" Direktorlar Şurasının sədridir.

## "WhatsApp", "Facebook" və "Instagram" çökdü




**"Facebook"a məxsus sosial şəbəkələrdə, o cümlədən "Instagram", "Whatsapp" və "Messenger" proqramlarının işində problem yaranıb.**

"Report" xəbər verir ki, bu barədə sosial şəbəkələrin və veb səhifələrin işini müşahidə edən "DownDetector.com" məlumat yayıb.

Sosial şəbəkə istifadəçiləri xüsusən xəbər lentində, yazışmalarda problemlərin olmasından şikayət edirlər.

Problemlər Azərbaycanla yanaşı, ABŞ, Yunanıstan, Britaniya, İspaniya və digər ölkələrdə müşahidə olunur.

## Azərbaycanda bəzi yanacaq markaları gömrük rüsumundan azad edildi

**Nazirlər Kabineti "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişikliklər edib.**

Dəyişikliyə əsasən, reaktiv mühərriklər üçün "TC-1" markalı yanacaq, o cümlədən "KO-20" markalı kerosin və "KT-2" markalı texniki məqsədlər üçün kerosin 15 faiz idxal gömrük rüsumundan azad edilir.

Bu qərar dərc edildiyi gündən 30 gündən sonra, yəni mayın 15-də qüvvəyə minir və 2020-ci il yanvarın 1-dək qüvvədədir. Qərara əsasən, reaktiv mühərriklər üçün digər yanacaq və digər məqsədlər üçün kerosinə 15 faiz idxal gömrük rüsumu isə qüvvədə saxlanılır.

Nazirlər Kabinetinin həmçinin "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələri"ndə də dəyişiklik edib.

Dəyişikliyə əsasən, ölkəyə gətirilən reaktiv mühərriklər üçün "TC-1" markalı yanacaq, o cümlədən "KO-20" markalı işıqlandırıcı kerosin və "KT-2" markalı texniki məqsədlər üçün kerosinin 1 tonuna 1 manat aksiz vergisi tətbiq olunur.

Bu qərar da 30 gündən sonra, yəni mayın 15-də qüvvəyə minir və 2020-ci il yanvarın 1-dək qüvvədədir.

Trend bildirir ki, qərara əsasən, reaktiv mühərriklər üçün digər yanacaq və digər məqsədlər üçün kerosinin 1 tonuna 80 manat aksiz vergisi tətbiq olunması qüvvədə saxlanılır.

## Rusiya Türkiyənin "S-400"lərlə bağlı mövqeyini yüksək qiymətləndirib

**Rusiya prezidentinin mətbuat katibi Dmitriy Peskov ABŞ-ın təzyiqlərinə baxmayaraq, Türkiyənin "S-400" zenit-raket komplekslərinin alınması ilə bağlı ortaya qoyduğu birmənalı mövqeyi yüksək qiymətləndirib.**

ONA-nın "RİA Novosti" agentliyinə istinadən verdiyi məlumata görə, D. Peskov "Moskva. Kreml. Putin" proqramında deyib ki, özünü suveren, müstəqil aparan dövlətləri barmaqla saymaq olar.

D. Peskov Rusiya və Türkiyənin belə dövlətlər sırasında yer aldığını bildirib: "Təzyiqlərə baxmayaraq, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın yetərincə qətiyyətli və güzəştsiz mövqeyini yüksək qiymətləndiririk. Məhz belə yanaşma azad və suveren dialoq aparılmasına imkan verir".

Abunə daha sərfəlidir - **"Yeni Müsavat" abunə** kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**



## Ərdoğansız Türkiyə necə olar?

**Ərdoğansız hökumət qurmağa çalışsanız, o hökumət FETÖ, PKK, CHP, İYİ hökuməti olar. Onlar da Türkiyəni yanğın yerinə döndərər, 3 ay belə idarə edə bilməz.**

Virtualaz.org bildirir ki, bunu Türkiyənin Vətən Partiyasının lideri Doğu Perinçək deyib. O, FETÖ, HDP və PKK xaricindəki qüvvələrin bir hökumətdə birləşdirilməsi gərəkdiyini bildirib: "HDP, PKK, FETÖ xaindir, düşməndir, ABŞ-ın qüvvələridir. Onlara iqtidar fürsəti yaratmaq bir kənara qalsın, onlara həbsxanadan başqa heç bir imkan və yer verə bilmərik. Buna görə də FETÖ, PKK, HDP-dən başqa qüvvələri bir hökumətdə birləşdirmək siyasi həll baxımından çox vacibdir. AKP və Rəcəb Tayyib Ərdoğanı kənarda qoyaraq Türkiyə bu çətinlikdən çıxa bilməz. Vətən Partiyasının tərəfdarları da bunu deyən kimi Türkiyəni Ərdoğanla birgə idarə edib-etməyəcəyimi soruşur. Bəli, Ərdoğanla bərabər Türkiyəni idarə etməyə məcburuq. Türkiyə Ərdoğansız buradan çıxa bilməz. Çünki Ərdoğanın arxasında Türkiyənin yarısı var. Dövlət Baxçalı da onunla birlikdədir. İkisi Türkiyənin yarısı deməkdir".

## Hava necə olacaq?

**Ölkə ərazisində aprelin 15-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a bildirilib ki, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu, yağmursuz olacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub küləyi əsəcək. Havanın temperaturu gecə 9-12°, gündüz 16-21° isti təşkil edəcək.**

## Jurnalistlərin binası qarşısında 300 meyvə və şam ağacı əkilib

**"Bu yaz özün bir təbiət yarat" şüarı ilə keçirilən yaz ağacəkmə kampaniyası çərçivəsində növbəti aksiya dünən jurnalistlər üçün inşa edilmiş binanın qarşısında təşkil olunub.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Mətbuat xidmətindən "Report"a verilən məlumata görə, aksiyada ETSN-in tinglik sahələrində yetişdirilən müxtəlif cinsli 300 meyvə və şam ağacı əkilib.

Jurnalistlərlə birgə ağacəkmədə nazirliyin əməkdaşları da iştirak edib

## Yeni ailə quran 18 yaşlı gəlin özünü öldürdü

**İsmayıllı rayonunda intihar hadisəsi baş verib. ONA xəbər verir ki, hadisə rayonun İvanovka kəndində qeydə alınıb. Bir neçə ay öncə rayonun Qaraqaya kəndindən İvanovka kəndinə gəlin köçən 2001-ci il təvəllüdlü Mahirə Hüseynova yaşadığı evin həyətindəki yardımçı tikilidən özünü kəndirlə asaraq intihar edib.**

Gənc qadının özünə qəsd etməsinin səbəbi hələ ki, dəqiq məlum deyil.

İlkin ehtimala görə, M.Hüseynova ailə münaqişəsi zamanı əsəbiləşərək intihar edib.

Faktla bağlı İsmayıllı rayon Prokurorluğu tərəfindən araşdırma aparılır.

## Moskvada yolda atışma olub, 1 əcnəbi ölüb, 1 nəfər yaralanıb

**Moskvada yolda atışma olub, 1 əcnəbi ölüb, 1 nəfər yaralanıb Rusiyanın Moskva vilayətində yolda atışma olub. ONA-nın "RİA Novosti" agentliyinə istinadən verdiyi məlumata görə, naməlum şəxs mübahisə zəminində naməlum şəxs iki nəfərə atəş açıb.**

Nəticədə 32 yaşlı xarici ölkə vətəndaşı ölüb, onun tanışı olan 36 yaşlı şəxs başından yaralanıb və xəstəxanaya yerləşdirilib.

İstintaqın əldə etdiyi ilkin məlumata görə, İzmaylovo qəsəbəsi yaxınlığında yolda iki qrup arasında keyfiyyətsiz mala görə ödənilən pulun geri qaytarılması ilə bağlı mübahisə olub. Bu zaman qrupların birindəki naməlum şəxs qarşı tərəfi atəşə tutub.

## Lənkəranda zəlzələ

**Lənkəranda zəlzələ olub. ONA-nın Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin saytına istinadən verdiyi məlumata görə, ötən gecə yerli vaxtla saat 03.16-da Lənkəran stansiyasından 19 km şimal-qərbdə, Lənkəran ərazisində 3,6 maqnitudalı zəlzələ qeydə alınıb.**

Zəlzələ episentrdə və yaxın rayonlarda 3 bala qədər hiss olunub.

## 11-cilər imtahan verdi

**Aprelin 14-də Dövlət İmtahan Mərkəzi 27 şəhər və rayonda orta ümumtəhsil müəssisələrinin 11-ci sinfində təhsil alan 28919 şagird üçün buraxılış imtahanı keçirib.**

DİM-dən verilən məlumata görə, imtahanda şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə ümumilikdə 85 tapşırıq təqdim edilib.

İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, müntəzəm olaraq imtahanın keçirildiyi binalarla əlaqə saxlanılıb və imtahan prosesinin gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, şagirdlərin öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

Aprelin 15-dən etibarən DİM-də imtahan protokollarının və cavab vərəqlərinin emalına başlanılacaq. Yazı işləri (açıq tipli tapşırıqların cavabları) DİM və onun regional bölmələrində müvafiq təhlükəsizlik tələblərinə cavab verən ekspertiza (yoxlama) zallarında, qapalı şəraitdə, kompüter arxasında markerlər tərəfindən yoxlanılacaqdır. Yazı işlərinin yoxlanılması üçün proqram təminatı Dövlət İmtahan Mərkəzinin mütəxəssisləri tərəfindən hazırlanıb.



## Tramp da Konqresin ilk hicablı vəkilini hədəfə aldı

**ABŞ Konqresinin ilk hicablı vəkili, Somali əsilli İlhan Omar 11 sentyabr hadisələri ilə bağlı fikirlərinə görə tənqid obyektinə çevrilib.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, ifrat sağçı və mühafizəkarlardan sonra ABŞ prezidenti Donald Tramp da Omarı hədəfə alıb.

Tramp Omarın çıxışından bir hissə ilə əkiz qüllələrin vurulma anının montajlanmış görüntülərini paylaşaraq "Əsla unutmayacağıq" sözlərini yazıb.

Qeyd edək ki, İlhan Omar 11 sentyabr hadisələrini düzgün qiymətləndirə bilməməkdə ittiham olunur.

YENİ MÜSAVAT
N 79 (7249) 15 aprel 2019

**Novruz bayramında əfv sərəncamı ilə azadlığa çıxan gənc fəal Qiyas İbrahimov təhsilini davam etdirə bilmir. Bununla bağlı "Turan"a açıqlama verən keçmiş siyasi məhbusun sözlərinə görə, 2016-cı ilin mayında onu həbs edəndə Slavyan Universitetinin dördüncü kurs tələbəsi olub."İmtahan çıxmışdım ki, məni həbs elədilər. Əgər həbs olmasaydı, qalan imtahanları verib, təhsilimi bitirərdim və diplom alardım. Həbsdən sonra vəkil universitetə bildiriş göndərərək mənim həbsdə ikən imtahan verməyimə icazə verilməsini xahiş etdi. Ancaq icazə verilmədi" deyə, o bildirib.**



# Əfvlə azad olunan gənc fəal universitetə bərpa olunmur

Q.İbrahimov azadlığa çıxdıqdan sonra təhsilini başa vurmağı qərara alıb və bir neçə gün öncə universitetin jurnalistika fakültəsinin dekanlığına müraciət edib: "Əvvəlcə məni dekanlıqda qəbul etdilər, bildirdilər ki, universitetdən xaric edilməyim, yoxsa akademik məzuniyyətə göndərilməyim barədə məlumatları yoxdur. Növbəti gün fakültənin dekanı Eldar Piriyev məni qəbul etdi, rektor Nurlana Əliyeva ilə danışmağı məsləhət gördü. Rektor məni dinləyərək dedi ki, mən universitetdən xaric edilmişəm və bərpa məsələsi hazırda gündəlikdə deyil, çünki tədris ilinin sonudur.

Bundan əlavə, rektor dedi ki, hazırda "akademik məzuniyyət" anlayışı mövcud deyil. "Gələn il bərpa oluna bilərəmmi" sualına isə rektor qeyri-müəyyən cavab verdi.

Bütün bunlar mənim təhsil almaq hüququmu pozur. Hesab edirəm ki, məni universitetə bərpa etməməklə məndən qisas almağı davam etdirirlər", o, qeyd edib.

**Təhsil Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Cəsarət Valehov** "Turan"a bildirib ki, məsələ ilə tanış deyil və universitet rəhbərliyinə müraciət etməyi məsləhət görüb. Həmçinin qeyd edib ki, bu cür hallar "Təhsil haqqında" Qanunun müddəaları ilə tənzimlənir.

## Mirvari Qəhrəmanlı: "Rektorun səlahiyyəti yoxdur ki, onu ali məktəbdən qovsun"



Mirvari Qəhrəmanlı

**Təhsil məsələləri üzrə ekspert Kamran Əsədov** da C.Valehovun sözlərini təsdiqləyib: "Əgər tələbə üzrlü səbəbdən (səhhəti, ailə vəziyyəti, yaşayış yerini dəyişməsi ilə əlaqədar, həmçinin həbs səbəbindən) təhsilini davam etdirə bilmirsə, bu barədə universitetə məlumat verir, onu müvəqqəti olaraq ali məktəbdən xaric edirlər. Lakin təhsili davam etdirmək üçün maneə olmadıqda o, təhsilini davam etdirə bilər, həm də onu dayandırdığı andan.

Məsələn, əgər təhsil mayda dayandırılıbsa, tələbə ikinci semestrdən universitetə bərpa oluna bilər, belə ki, birinci semestri oxuyub və ikinci yarımilə keçib. İndiki halda bərpa ilə bağlı heç bir problem yaranmır".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı** məsələ ilə bağlı "Yeni Müsavat"a bunları dedi: "Gedən proseslər çox həssas məsələdir. Ölkə başçısı humanist addımlar atır, əfv sərəncamı imzalayıb. Əfvlə azadlığa çıxan məhbuslardan biri həbs olunur, digəri, yəni Qiyas polisə çağırılır, indi də təhsilini davam etdirməkdə bu cür problemlər ortaya çıxır. Qiyası imtahanları verə bilmədiyinə görə qovmayıblar. Rektorun səlahiyyəti yoxdur ki, onu ali məktəbdən qovsun. Onun barəsindəki siyasi qərarın davamı kimi universitetdən uzaqlaşdırıblar. Ölkədə ikili proses gedir. Bir tərəfdən gələcək üçün addımlar atılır, digər tərəf buna sədd çəkmək istəyir. Niyə əfvlə azadlığa çıxan məhbuslara qarşı bu cür addımlar atılmalıdır? Atılan humanist addımlara kölgə salmaq, ölkədə vəziyyəti gərginləşdirmək üçün daha çox belə vəziyyət yaradılır. Qiyas yaxşı olar ki, rektora məktub yazıb, rəsmi cavab alsın. Çünki insanların çoxu ya zəng edirlər, ya da qəbula düşürlər. Nəticədə də əllərində rəsmi cavab olmur. Bunun da nəticəsində dediklərini təsdiqləyə bilmirlər. Qiyas özü bilmədən dərs buraxmayıb ki!? Özündən asılı olmayan səbəblərdən bunlar baş verib. Müraciət edib rəsmi cavabdan sonra şikayət edə bilər. Ölkədə müəyyən siyasi qüvvələr aparılan islahatları axsatmaq istəyirlər. Azərbaycanın Avropaya sazişlə inteqrasiyasını daha da sürətləndirməsini bəzi dairələr istəmirlər".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

# Yataqxanalarda yanğın müəmması: sakinlər rəsmilərlə razılaşmır





## "Kimin məsuliyyətə cəlb olunmasını biz bilmirik, bildiyimiz odur ki..."

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev aprelin 10-da jurnalistlərə açıqlamasında bildirib ki, martın 6-da Nərimanov rayonunda məcburi köçkünlərin məskunlaşdığı yataqxanadakı yanğın qəsdən törədilib.**

Onun sözlərinə görə, hadisə ilə bağlı cinayət işi başlanıb. Müvafiq ekspertizalar təyin edilib, yataqxananın qəsdən yandırılmasına dair rəy də var.

Eləcə də aprelin 10-da Nizami rayonunda yerləşən məcburi köçkünlərin məskunlaşdığı yataqxanada baş verən yanğının da qəsdən törədilməsi ilə bağlı ittihamlar səsləndirildi. Lakin bu fikir məcburi köçkünlərin etirazı ilə qarşılandı. Rəsmilər bildirdilər ki, yanğınla bağlı ekspertizanın rəyi məlum olduqdan sonra konkret fikir söyləniləcək.

**Bəs binanı konkret kimlər yandırıb? Onlar məsuliyyətə cəlb olunubmu? Bu barədə nə üçün ictimaiyyətə məlumat verilmir?**

Binada məskunlaşan məcburi köçkünlərlə əlaqə saxladıq. Onlar "Yeni Müsavat"a bildirdilər ki, aparılan istintaqın detallarından xəbərsizdirlər: "Kimin məsuliyyətə cəlb olunmasını biz bilmirik. Bildiyimiz odur ki, həmin günü Fövqəladə Hallar və Daxili İşlər Nazirliyinin əməkdaşları olmasaydı, yuxarı mərtəbədə yaşayan hər kəs yanıb öləcəkdi. Əgər binanı sakinlər yandırsalar, o zaman heç olmasa camaat əvvəlcədən koridorda, pilləkənlərdə durardılar ki, qaça bilsinlər. Kim özünü bilərəkdən yanğına atar? Ona görə də bu versiyaya inanmırıq", deyə, adlarının açıqlanmasını istəməyən, binada məskunlaşan sakinlər söylədilər.

Onu da qeyd edək ki, Nizami rayonunda baş verən yanğın sonrası hadisə yerinə gələn baş nazirin müavini Əli Əhmədov bildirmişdi ki, son zamanlar Bakıda ard-arda yanğınlar baş verir. Ə. Əhmədov söyləmişdi ki, yataqxanalarda yanğın təhlükəsizliyinin təmin olunması, müvafiq işlərin aparılması ilə bağlı ciddi tapşırıqlar verilib.

Əvvəlcə onu qeyd edək ki, hazırda Bakıda yerləşən yataqxanalardan demək olar ki, məcburi köçkünlərin köçürülməsi prosesinə başlanılmayıb. Hazırkı mərhələdə daha pis vəziyyətdə, zirzəmilərdə, məktəblərin həyətində, bağçalarda, yaşanması mümkün olmayan şəraitlərdə yaşayan məcburi köçkünlərin köçürülməsi prosesi həyata keçirilir. İndiyədək yataqxanalardan yalnız çox az sayda məcburi köçkünlər evlə təmin olunub. Yayılan rəsmi məlumatlardan və köçürülən məcburi köçkünlərin fikirlərindən belə aydın olur ki, dövlətin bu istiqamətdə apardığı iş qənaətbəxşdir və verilən mənzillər məcburi köçkünlərin rahatlığını təmin edə bilir. Hazırda da universitetlərin yataqxanalarında məcburi köçkünlər yaşamaqda davam edirlər. Bu yataqxanalarda yanğın təhlükəsizliyi məsələsinə gəlincə isə mütəxəssislərin fikrincə, həmin binalarda tam olaraq təhlükəsizlik tədbirlərini qurmaq mümkün deyil. Çünki əksər yataqxanaların bir çıxışı, dar koridoru, ensiz və orta təmirli pilləkənləri var. Eləcə də həmin binaların bir çoxunun heç ehtiyat su hovuzu da mövcud deyil. Bundan əlavə, yataqxanalar təbii qazla təchiz olunmadığı üçün elektrik xətləri normadan artıq yüklənir. Xətlər köhnə və qarışıq vəziyyətdə olduğu üçün qısaqapanmanın baş verməsi qaçılmaz olur. Bunun nəticəsidir ki, son illər məcburi köçkünlərin məskunlaşdığı yataqxanalarda yanğınlar baş verir.

Yanğın sonrası məcburi köçkünlərin evsiz qalan qismi müvəqqəti olaraq kirayə mənzillərə köçürülür. Yataqxana təmir olunduqdan sonra isə onlar yenidən yataqxanaya qaytarılır.

Məcburi köçkünlərlə söhbətimiz zamanı onlar bildirdilər ki, yanğından sonra yenidən yataqxanaya qaytarılacaqları bilirlər:

"Ona görə də heç kim köçürülmə üçün öz pal-paltarını, əşyalarını yandırmaz. Bina yanan zaman biz düşünürdük ki, yenə də paltarımız yanacaq, kimdənsə paltar almaq məcburiyyətində qalacağıq. Onsuz da Qarabağda hər şeyimiz yandı, adımızı da "qaçqın" qoydular. İndi binanı nə üçün yandırıb, belə bir addım ataq ki..."

**Təhlükəsizlik üzrə ekspert İlham İsmayıl "Yeni Müsavat"a bildirib ki,** baş verən yanğınlarda kənar təxribat axtarmaq lazım deyil: "Çünki kiçik yanğınlar hansısa xarici ölkənin marağında deyil. Mümkündür ki, bu məsələlər ehtiyatsızlıqdan baş verib. Qaçqınların, köçkünlərin məskunlaşdığı binalar yandırılırsa, səbəb yaşayışdır. Qaçqın demək istəyir ki, yaşayış yerimi yaxşılaşdır, yeni evlə təmin elə. Təbii ki, belə bir ehtimalın olmasına görə həmin yerdə yanğın təhlükəsizliyi məsələsinə xüsusi diqqət yetirilməlidir".

Əldə etdiyimiz məlumata görə, hələ ki, yataqxanalarda yanğın təhlükəsizliyi ilə bağlı ciddi işlərə başlanılmayıb.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 79 (7249) 15 aprel 2019

# Çevik hökumət modelinə doğru: nazirlər kabinetlərini boşaldır

**Əgər əvvəllər bir nazirin, komitə sədrinin hadisə yerinə gəlməsi, vətəndaşların qarşısına çıxması böyük bir olay kimi qiymətləndirilirdisə, indi bu, adi hala çevrilib...**

**Son bir ildə Azərbaycanda idarəetmə strukturunda bir çox yeniliklərə imza atılıb. Artıq daha çevik və açıq hökumət modelinə doğru bir meyl müşahidə edilməkdədir. Əgər əvvəllər bir nazirlin, komitə sədrinin hadisə yerinə gəlməsi, vətəndaşların qarşısına çıxması, hadisə ilə bağlı media önünə çıxaraq birbaşa məlumat verməsi böyük bir olay kimi qiymətləndirilirdisə, indi bu adı hala çevrilib.**





Şamaxıda zəlzələ nəticəsində dağılan evlərə nazirlərin baş çəkməsi, “Diqlas”da yanğın zamanı fövqəladə hallar nazirlinin hadisə yerinə gəlməsi, iqtisadiyyat naziri Şahin Mustafayevin vətəndaşları dərhal qəbul etməsi, Nizami rayonunda qaçqınların yaşadığı ərazidə baş verən yanğınla bağlı baş nazirin müavini Əli Əhmədovun, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevin hadisə yerində vətəndaşların problemlərini birbaşa dinləməsini qeyd etmək olar. Bu praktika problemin həlli baxımından effektiv olsa da, hər bir məsələnin nəhayətdə prezident müdaxiləsi ilə nəticələnməsi idarəetmənin aşağı qatlarının həm də fəaliyyətinin yetərsizliyindən xəbər verir.

**Mövzu ilə bağlı “Yeni Müsavat”a danışan Milli Məclisin deputatı Fəzail Ağamalı** bildirdi ki, ölkə prezidenti 2018-ci ilin aprel seçkilərindən dərhal sonra bütün istiqamətlərdə islahatlara start verdi: “Bu islahatların vacib tərkib hissələrindən biri kimi idarəçilik sistemi və bu sistemdə kadrların fəaliyyətinin daha operativ və çevik olması da dayanırdı. Dəfələrlə dövlət başçısı ən yüksək tribunalardan məmurların Azərbaycana xalqına təmənnasız xidmət etməsini önə çəkib və özünü də bu baxımdan nümunə kimi göstərib. Dəfələrlə deyib ki, o, Azərbaycana xalqına xidmət etməkdən şərəf duyur. Dövlət başçısı kimi hər bir məmur da bu xalqa xidmət etməli, onun problemlərini dərhal aradan qaldırmaq üçün bütün imkanlardan istifadə etməlidir. Bu tələblərlə paralel olaraq bəzi addımlar da atıldı. İdarəetmədə gənc kadrlar vəzifəyə gətirildi, bu və ya digər sahədə təcrübəsi olanlar komitə sədrləri təyin olundu. Bu da hakimiyyətə yeni bir impuls verdi, yeni bir enerji gətirdi, potensialını artırdı. Dövlət başçısının çağırışlarına əməl edən bir komanda formalaşdı. Bu komanda bütövlükdə yüksək səviyyədə fəaliyyətini qurmaqdadır. Fəaliyyətini yüksək səviyyədə quran nazirlərin dəyişməsinə isə ehtiyac duyulmadı, onlar uzun müddətdir vəzifədə olsa belə, işdən kənarlaşdırılmalıdılar. Çünki öz vəzifələrinin öhdəsindən yetərincə gəlirlər”.

**F.Ağamalı hesab edir ki, nazirlərin birbaşa hadisə yerinə, rayonlara getməsi də zamanın çağırışlarına uyğun addımlardır:** “Hər bir nazir artıq öz sahəsi ilə bağlı bu və ya digər problem yarananda dərhal orada olur, digər fərqli yanaşmalar da tətbiq edilir. Kənd təsərrüfatı naziri rayonlara gedir, təsərrüfatlarda olur. Mart ayının əvvəlində 20-dən yuxarı deputatı da dəvət etdi. Biz iki saatdan artıq dəyirmi masa ətrafında müzakirə apardıq , təkliflərimizi verdik. Bütün bunların hamısı İnam Kərimov tərəfindən qeyd edildi, özünün reaksiyaları, sualları da oldu. Bu cür hallar əhali tərəfindən də müsbət qarşılanır. Fövqəladə hallar naziri ölkədə fövqəladə hallar yaranarkən öz komandası ilə birlikdə dərhal orada olur, məsələyə yerindəcə baxır, tapşırıqlarını verir. Bu yaxınlara ”Diqlas" ticarət mərkəzində baş verən yanğında, Şamaxıda baş verən zəlzələdə, Nizami rayonunda qaçqınların yaşadığı ərazidə yanğın olanda da biz rəhbər şəxsləri, nazirləri orada gördük. Artıq fərqli bir yanaşma var. İdarəçilik sistemi daha çevik, daha operativ qurulub, insanlarla bərabər olmaq təcrübəsi var. Son dərəcə effektli yanaşmadır. Bu təcrübə bütün nazirliklər və komitələr səviyyəsində tətbiq olunmalıdır. Əvvəlki illərdə də ayrı-ayrı nazirlik və komitələrin rəhbərləri regionlara səfərlər edirdilər, insanlarla görüşürdülər. Mən arzu edərdim ki, bu görüşlər açıq mikrofon şəklində keçirilsin. Problemi olan vətəndaşlar böyük zallara yığılsın və açıq mikrofonla hər kəs öz xahişini, təklifini səsləndirsin, nazirlər , komitə sədrləri bunu qeyd edib həlli ilə bağlı tapşırıqlar versinlər".

**Deputat Fazil Mustafa da vurğuladı ki, əksər problemlərin dövlət başçısına qədər gedib çıxması və onun tərəfindən nəzarətə götürülməsi mərkəzləşmənin çox güclü olmasının nəticəsidir:** “Mərkəzləşmə çox güclü olduğundan bütün problemlər yerindəcə həll edilə bilmir. Çünki məktəbə müəllimi direktor götürmür, Təhsil Nazirliyi göndərir. Sonrakı məsələlərdə də eyni qaydada mərkəzləşmə davam edir. Nazirliyin özü də özünə aid olan bəzi funksiyaları yerinə yetirmək səlahiyyətində malik olmur, o da mərkəzləşmiş qaydada həll olunur. Bunun üçün Nazirlər Kabinetinin məsələyə münasibətini gözləməlidir. Nazirlər Kabineti də bəzi məsələləri həll edə bilmir. Bu mərkəzləşmənin yaratdığı problemdir. Biz ilk növbədə bu mərkəzləşmə problemini çözməliyik, faydalı tərəflərini saxlamalı, faydasız tərəflərini aşağıya doğru aparmalıyıq. Mərkəzdənqaçma prinsipi ilə aşağıların səlahiyyətini artırmalıyıq. Bunun üçün ilk növbədə bələdiyyə sistemi gerçək mahiyyət daşımalıdır. Bələdiyyələr real quruma çevrilməlidir. Normal seçkilərlə lokal səviyyəli liderlərin seçilməsi ilə yerli problemlərin həllini mərkəzləşmiş qaydada həll etmək metodundan imtina etmək mümkün olacaq. Yerli problemlərin hamısının prezident səviyyəsində həllinə ehtiyac qalmayacaq, bələdiyyə səviyyəsində həll olunacaq. O baxımdan söhbət mərkəzləşmə ilə bağlı problemdən gedir. Bunu həll etməsək, çətin olacaq”.

**F.Mustafa hesab edir ki, nazirlərin bu açılımı da effekt vermir:** “Yaxşı olar ki, nazirlər elektron qaydada az məsrəflə daha vətəndaşın problemlərini dinləmək imkanı verən bir formatdan istifadə etsinlər. Əks halda, rayonlara gedib 10-15 nəfərlə görüşmək, bu qəbulun formal olaraq gerçəkləşməsi deməkdir. Bu əhalinin çox cüzi hissəsini əhatə edir. Bunlar çox zaman seçilmiş insanlar olur və məsələləri də rayon səviyyəsində qoymurlar. Ona görə də, vətəndaşların qəbulu modelinin modernləşməsinə ehtiyac var. Elektron qaydada bir qəbulda min nəfəri qəbul etmək imkanı yaradır, vətəndaşlar da evindən çıxmadan şikayətlərini çatdıra bilirlər. Həmçinin hesabatlılıq məsələsi çox önəmlidir. Qurumlar bilməlidirlər ki, ən azından Milli Məclisə hesabat verirlər. Bələdiyyələrin, Nazirlər Kabinetinin hesabatları çox zaman formal xarakter daşıyır. Büdcə müzakirələrində son vaxtlar müsbət tendensiya var, ancaq o da istənilən səviyyədə həyata keçirilmir. Bu kimi məsələləri birlikdə həll etmək yollarını tapmaq lazımdır. Parlamenti də bu məsələdən kənarlaşdırmaq olmaz. Məsələn, son məhkəmə islahatlarında ümumiyyətlə parlamentin rolu nəzərə alınmayıb. Hamının prosesə cəlb olunması ilə məsələni çözmək mümkündür”.

❑ **Nərgiz LİFTİYEVA, “Yeni Müsavat”**

## Kanada şirkəti Azərbaycana investisiyalarını artıracaq

**Azərbaycanın “Muradxanlı-Cəfərli-Zərdab” yataqlar blokunun işlənilməsi üzrə operator olan Kanadanın “Zenith Energy” şirkəti Kanadada aksiyaların buraxılışı üzrə TSX-V fond birjasının şərti razılığını alıb.**

Bu barədə “Trend” şirkətin məlumatına istinadən xəbər yayıb.

“Zenith Energy” təsdiq edib ki, sadə aksiyalar 2019-cu il aprelin 5-də lazımi sənədlər verildikdən sonra buraxılıb.

Şirkətin məlumatına əsasən, “Zenith Energy” TSX-V-dən yekun təsdiqi gözləyir.

Bildirildiyi kimi, “Zenith Energy” bu vəsaitləri Azərbaycanda qazma işlərinə yatırmaq üçün cəlb edir.

Qeyd edək ki, SOCAR və Kanada şirkəti arasında “Muradxanlı”, “Cəfərli” və “Zərdab” neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş 2016-cı il martın 16-da imzalanıb.

YENİ MÜSAVAT
N 79 (7249) 15 aprel 2019

**Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasındakı Qarabağ danışıqlarının növbəti raundu aprelin 15-də Rusiyada keçiriləcək. İşğalçı ölkənin rəhbərliyinin davranışları əslində danışıqların perspektivini sual altına aldığı bir zamanda Kremlin ev sahibliyi statusunda çıxış etməsi kifayət qədər maraq doğurur. Sabiq xarici işlər naziri, politoloq Tofiq Zülfüqarovla budəfəki söhbətimizdə təcrübəli diplomatın Rusiyanın təşəbbüsünün arxasındakı məqsədləri araşdırmaq, perspektivlərlə bağlı gözləntilərini öyrənmək istədik. Digər mövzularla bağlı da fikirlərini bölüşən eks-nazir Avropa Şurasının ermənipərəst rəhbərliyi ilə bağlı da çox ciddi açıqlamalar verdi.**

# “Yaqland ya axmaqdır, ya da satılmış siyasətçi”

## Tofiq Zülfüqarov: “Tələb etmək lazımdır ki, onu Avropa Şurasının rəhbərliyindən rədd etsinlər”



**“Ermənistan Rusiyadan nəyi istəyibsə, artıq alıb”**

***- Tofiq bəy, son aylarda Azərbaycan-Ermənistan danışıqları Rusiya sərhədlərindən kənarda aparılıb. Nazirlərin Moskva görüşünə qərar verilməsi Rusiyanın prosesə nəzarəti ələ almaq cəhdidir, yoxsa başqa səbəb var?***

- Hansısa ölkənin ərazisində keçirilən görüşə həmin ölkənin çox cüzi təsiri var. Bizdə tez-tez görüşün keçirildiyi yerə tez-tez diqqət çəkirlər. Amma bu bağlantı çox nisbidir. Əsas məsələ ondan ibarətdir ki, ermənilər artıq başa düşüblər ki, onlar danışıqlardan qaçmamalıdırlar. Ona görə də indi danışıqların imitasiya prosesində onlar çox aktiv iştirak edəcəklər. Prezident Sərkisyan da deyib ki, danışıqlar nəticə verəcək. Bu baxımdan onların danışıqlara qayıtması heç də o demək deyil ki, məsələlər həll olunacaq. Sadəcə olaraq, onlar tənqiddən qaçıb yenə də imitasiya prosesinə qoşulacaqlar. Mən hesab edirəm ki, burada Rusiyanın, xüsusilə Lavrovun marağı çox böyükdür. Onlar danışıqlar prosesinin yenidən bərpa olunmasında maraqlıdırlar.

***- Bu həm də hərbi əməliyyatlar riskini minimuma endirir, eləmi?***

- Təbii. Hər dəfə məsələ müxtəlif səviyyələrdə qalxanda ki, bəs, nə oldu, deyirlər danışıqlar gedir, ümidlər, yeni ideyalar var və s. Yəni hər dəfə həqiqətə oxşar hansısa bir məsələ ortaya atılır. İndi də istisna etmirəm ki, gələcək raundda əsir və girovların məsələsi müzakirə olunacaq. Danışıqların əhəmiyyətini artırmaq üçün əsir və girovlarla bağlı irəliləyişi istisna etmirəm. Amma real məsələlərin müzakirəsi, təbii ki, mümkün deyil. Çünki gülməli olardı ki, dövlət başçıları bir nəticəyə gəlmədiyi halda, nazirlər hansısa nəticəyə gəlsin.

***- Bir müddət əvvəl Elmar Məmmədyarov Moskvada olarkən “ürəkdən tikan çıxaran” ifadələr söylədi, işğalçı ölkəyə xəbərdarlıq etdi. Məsələn, dedi ki, mənimlə anlaşmayan müdafiə naziri ilə anlaşmalı olacaq. Bu haqda nə demək olar?***

- Mən bu söhbətlərə bir az tənqidi yanaşıram. Çünki əslinə qalsa, burada Ermənistan, yaxud Azərbaycanın xarici işlər nazirlərinin rolu bir o qədər çox deyil. Təbii ki, dövlət başçılarının qərarları olmalıdır. İkincisi də bu, Lavrovun bir-iki il bundan qabaq Suriyaya aid söylədiyi fikirdir. Bu fikirləri artıq kim istəyirsən, deyir, yeni bir şey yoxdur. Amma gərək burada ictimaiyyətin rəyi qabardılsın. Biz yaddan çıxartmamalıyıq ki, qərarların mənbəyi ictimai rəydir. Çünki erməni siyasətçilər ictimai rəyin arxasında tez-tez gizlənirlər. Deyirlər ki, biz konstruktiv mövqedəyik, amma xalq bunu qəbul etməyəcək. Odur ki, mən bu cür bəyanatların tərəfdarı deyiləm, gərək ictimai rəy qabardılsın.

***- Belə demək olarmı ki, siz Qarabağ mitinqlərinin keçirilməsinin tərəfdarısınız?***

- Mən müxtəlif üsulları dəstəkləyirəm. Ermənistanda mitinq keçirmirlər. Amma elə bir təəssürat yaradıblar ki, sanki onlara heç vaxt aid olmayan ərazilər azad olunsa, az qala bunlar özlərini öldürəcəklər. Bunu həmişə qabardırlar. O mənada azərbaycanlı nazirin rəyi, təbii ki, əhəmiyyətlidir, amma çox da əhəmiyyət kəsb etmir. Lakin ictimaiyyətin rəyi daha qabarıq göstərilməlidir.

***- Bu ərəfədə Ermənistanda Putinə sərt ittihamlar səslənməkdədir. Hətta Rusiya prezidenti Ermənistan parlamentindəki terrorda ittiham olunur. Bu, nədən xəbər verir?***

- Bəlkə, onlarda hansısa faktlar var. Varsa, göstərsinlər. Anti-Putin rəyləri və istəkləri çoxalır, bu tendensiya, bu gərginlik davam edəcək. Bunun səbəbi çox sadədir: Ermənistan Rusiyadan nəyi istəyibsə, artıq alıb. Başa düşür ki, bundan sonra Rusiya Ermənistanı inkişaf etdirmək üçün bu ölkəyə investisiya qoyan deyil. Bu mənada onlar investisiya və dəstəyi Qərbdən almalıdırlar, bu yolu artıq seçiblər. Anlayırlar ki, dəstək almasalar, bir dövlət kimi Ermənistanın gələcəyi şübhə altındadır. İnkişaf üçün pul lazımdır. Paşinyanın Strasburqa səfəri və orada deyilən fikirlər də çox maraqlıdır. Yəni onlar istəyirlər özlərinin köhnə strategiyasını həyata keçirsinlər. Guya ki, KTMT müqaviləsi onlar üçün çox vacibdir, ona görə də bu barədə Strasburqda danışırlar. Eyni zamanda ona nail oldu ki, Avropa Şurasının baş katibi Turbyor Yaqland dedi Ermənistan tamamilə Avropa ölkəsidir. Əslinə qalsa, qəribə fikirlərdir. Hansı ki, bu ölkə etnik təmizləmə həyata keçirib. AŞ-ın baş katibinin bu cür fikirlər səsləndirməsi absurddur. O ya siyasətdən uzaq bir axmaqdır, ya da satılmış bir siyasətçidir, bunu açıq demək lazımdır.

***- Bundan əvvəl Azərbaycan tərəf dəfələrlə azərbaycanlı girovlar məsələsini qaldırsa da, Avropa Şurası rəhbərliyi üzv ölkə olan Ermənistanla bağlı heç bir ölçü götürməyib. Bu dəfə isə Paşinyan Azərbaycanı elə Yaqlandın yanında təhdid etdi. Üstəlik, baş katib ermənilərin maraqlarına xidmət edən bəyanat səsləndirdi. Onun anti-Azərbaycan mövqeyinə rəsmi Bakının reaksiyası necə olmalıdır?***

- Biz bununla əlaqədar ciddi reaksiya verməliyik. Etnik təmizləmələr olan yerdə hansısa komissarın işlər aparmasını tələb etmək nə deməkdir? Bu, ağlasığmaz məsələdir. Hər şey qalsın qıraqda, ərazidə etnik təmizləmələr həyata keçirib, Yaqland bunu da görmür? Tələb etmək lazımdır ki, onu Avropa Şurasının rəhbərliyindən rədd etsinlər!

Hesab edirəm ki, bu məsələni ciddi şəkildə qoymaq və onun məsələsini gündəliyə salıb müzakirə etmək lazımdır. Buna ciddi əsaslar var. Bəhanə kimi istifadə edib Yaqlandın istefasına nail olmaq lazımdır. Biz başa düşməliyik ki, bu təşkilat bizim pulumuzla fəaliyyət göstərir. Bizim pulumuzla göstərilən fəaliyyət də hansısa prinsiplərə əsaslanmalıdır. Onun bəyanatı heç bir məntiqə sığmır.

***-Bu arada Anjey Kasprşiklə bağlı da şübhəli məlumatlar yayılmaqdadır. Hər halda, o da bölgədə bizim pulumuzla fəaliyyət göstərir...***

- Açığı, hələlik Kasprşikin məntiqdən uzaq bəyanatlarını görməmişəm. Mən onunla əlaqə saxlayıram və görüşürəm. Orada mandatdan kənara çıxma halları olmayıb.

***- Onun hesabatlarında “Dağlıq Qarabağ respublikası” kimi təqdimatdan istifadə etdiyi barədə iddialar var. Bəs, buna nə deyirsiniz?***

- Redaktə baxımından nöqsanlar ola bilər, buna da nəzarət etmək lazımdır. Çünki onun məruzələri həm icraçı sədrə verilir, həm də bizim orda səfirlik fəaliyyət göstərir, daimi nümayəndəmiz var. Onun məruzələri də açıqdır, məruzələrdəki hansısa leksik ifadəyə aid məsələ qaldırmaq lazımdır. Amma mən bunu yaxşı bilirəm ki, iki il bundan qabaq 6 hərbçimiz həlak olanda Kasprşik onların nəşini ələ etmək üçün çox fəaliyyət göstərdi, bu da var. Hər halda mən Kasprşikə aid tənqidi fikirləri və əsasları görmürəm. Düzdür, onun məruzələrini görməmişəm, amma öz rəyimi deyirəm.

***- Amma onun uzunmüddətli fəaliyyətinə də tənqidi yanaşılır. Bu, normaldırmı?***

- Onun konkret vəzifəsi var, o, danışıqlarla məşğul olmur. O, sadəcə olaraq, səhra köməkçiləri vasitəsilə yerlərdən məlumat yığır və bu məlumatı məruzə şəklində formalaşdırıb icraçı sədrə göndərir.

***- Ermənistan ordusu Ağdamda genişmiqyaslı hərbi təlimlər keçirir, di gəl ki, heç vaxt bununla bağlı ATƏT sədrinin etirazına rast gəlmirik. Ola bilərmi ki, Kasprşikin komandası faktları gizlədir?***

- Belə bir zarafat var: “Şikayət etmək istəyirsənsə, get, ”sportloto”ya şikayət elə”. Həmsədrlərin vəzifəsi danışıqlarda vasitəçilik və təşkil etməkdən ibarətdir. Kasprşikin isə vəzifəsi icraçı sədrə olan məlumatı çatdırmaqdır. Yəni mətbuatdakı tendensiyalar, ictimaiyyət arasında olan məsələlər və s. Çünki onun qrupu müdaxilə etmədən monitorinq aparır və məlumat verir. Ancaq onun rəyi qəbul olunmur.

***- Bu arada həmsədr ölkələrdən biri Fransa Türkiyəyə qarşı saxta “soyqırım”la bağlı növbəti, ermənipərəst addımını atdı. Ankara-Paris gərginliyi hansı həddədək davam edə bilər?***

- Türkiyə XİN tam ətraflı, məntiqli və beynəlxalq qanunlara uyğun bir bəyanat verdi. Xüsusilə qeyd edib ki, əgər biz BMT-nin qərarına və soyqırımla bağlı bəndə baxsaq, görəcəyik ki, soyqırımın tanınması üçün beynəlxalq məhkəmə lazımdır. Yəni o halda bu və ya digər hadisə soyqırım kimi qiymətləndirilə bilər. Siyasətçilər bu qiyməti verə bilməzlər.

Fransa qabaqlar fövqəldövlət idi, indi isə bu ölkənin nüfuzu aşağı düşüb. Çavuşoğlu da xüsusilə qeyd edib ki, sizə aid olmayan bəyanatları verəndə elə hesab edirsiniz ki, sizin beynəlxalq nüfuzunuz artır. Fransanın əsas məqsədi ondan ibarətdir ki, guya onların rəyi böyük əhəmiyyət kəsb edir. İstəyir soyqırımı tanısın, istəyir tanımasın, öz işidir. Bundan əvvəlki prezident Sarkozi də çox şeyi tanımaq istədi. Hətta Konstitusiya Məhkəməsinin qərarına da nail oldu. Amma indi gəlib bizimlə biznes qurmaq istəyir. Bunlar konkret siyasi maraqlara cavab verən addımlar atırlar. Yəni erməni diasporu bunlara təzyiq edir, yaxud imtiyazlar yaradır, bu imtiyazların da nəticəsində bu cür bəyanatlar verilir. İstefadan sonra isə gəlib bizimlə biznes ortağı olmaq istəyirlər.

***- Hər halda, Fransa prezidenti qərarını verib. Bunun cavabında Azərbaycan Türkiyə ilə birgə hansı addımı ata bilər?***

- Buna diqqət yetirib hansısa bəyanat vermək olar. Ya da demək lazımdır ki, boş-boş bəyanatlar artıq çoxalıb, amma bunların nə Azərbaycan, nə də digər bir ölkə üçün hüquqi nəticəsi ola bilər. Belə görünür ki, Fransa Ermənistanın qərbyönlü siyasətini kurasiya edir. Elə Paşinyanın Strasburqdakı çıxışında da özünü büruzə verib. Orda deyilib ki, Avropada elə ölkələr var, ABŞ-ın İranla bağlı siyasətini dəstəkləmirlər, biz bu dairələrlə əlaqələri və əməkdaşlığı gücləndirəcəyik. Hər halda, belə bir təəssürat yaranır ki, Sərkisyan öz xidmətlərini təklif edir. Yəni mənim İranla yaxşı münasibətlərim var, biz ABŞ-ın sərt münasibətini dəstəkləmirik, biz Boltonun fikirlərini qəbul etməmişik və s. Bu da ermənilərin növbəti oyunlarından biridir. Eyni zamanda Fransa hərdənbir bu oyunlarda iştiraka meyllidir. Amma hesab edirəm ki, Makronun Paşinyanla bu cür oyunları davamlı olmayacaq.

❑ **Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 79 (7249) 15 aprel 2019

**Sabiq baş nazir, Azərbaycan Xalq Partiyasının rəhbəri, Qarabağ Komitəsinin təsisçilərindən olan Pənah Hüseyn Musavat.com-un Facebook və Youtube üzərindən yayımlanan canlı debatı zamanı sensasion açıqlamalar verib.**

# Pənah Hüseynin sensasion iddialarına reaksiya

## İlham İsmayıl: "Ciddi bir dövr ərəfəsindəyik"

Pənah Hüseyn bildirib ki, o, ölkəmizlə bağlı ciddi informasiyalar alıb: "Mənə xaricdəki dostlarımız bildirdilər ki, bu ayın sonu, gələn ayın əvvəlində ölkənin həm şimalında, həm də cənubunda təxribatlar hazırlanır. Bunu milli zəmində və xüsusi xarici xidmət orqanlarının əli ilə etmək istəyirlər. Çox diqqətli, ehtiyatlı olmaq lazımdır. Cürbəcür məqsədlər üçün bu təxribatlar hazırlanır. Bunlardan birinin Avropa Birliyi ilə bağlanan müqavilənin imzalanmasını dayandırmaq, ya da sıradan çıxarmaq olduğunu iddia edirlər. Bu məsələdə ermənilərin də işləməsi, ölkədə xaosun olmasında onların da marağının olması aydındır".



Sabiq baş nazirin fikrincə, konkret hadisələrə görə konkret şəxslərin haqqında inzibati və cinayət hüququ əsasında tədbirlər görülməlidir: "Gözümüzün qabağında bəzi ölkələrdə baş verənləri xatırlatmaq istəyirəm. Onlarda da heç bir şey gözlənilmirdi. Amma iqtidarların devrilməsini müşahidə edirik. O baxımdan, preventiv tədbirlər kimi, hesab edirəm ki, ölkədə real islahat, real dəyişim, real, demokratik seçki tətbiq olunmalıdır. Allah eləməsin ki, bu cür hadisələr xoşagəlməz nəticələrə səbəb olsun".

P.Hüseynin ilginc iddiaları ilə bağlı sabiq MTN polkovniki İlham İsmayılın mövqeyini aldıq.

Təhlükəsizlik məsələləri üzrə ekspert iddialardakı həqiqətlərdən söz açdı: "Pənah bəy uzaqgörən adamdır. O bilir ki, Azərbaycanın Avropaya yaxınlaşması həm daxildən, həm də xaricdən təxribatlarla müşahidə olunub. Daxildən şimala və cənuba bağlı bir sıra şəxslər var. O şəxslər adi deyil, səlahiyyətli şəxslərdir. Həmin şəxslərin müəyyən dərəcədə təxribatları olub. Çalışırlar ki, Azərbaycan Avropaya yaxınlaşmasın. Ona görə də çalışırlar ki, insan haqları və hüquqları ilə bağlı, yeni Avropa ittifaqının əsas tələblərinə qarşı müəyyən addımlar atsınlar, sərt tədbirlər görsünlər, həbslər aparsınlar. Bu nöqteyi-nəzərdən daxildən belə təxribatlar mümkündür. Şimal-cənub qonşularımız isə bizim üçün hər zaman təhlükə olduğuna, hər zaman Avropa yaxınlaşmağımıza maneə olduğu üçün kifayət qədər belə məsələlər mümkündür. Çünki zamanında biz bunları görmüşük. Burada vəzifələrimizdən, görəcəyimiz işlərdən biri bu işin qarşısını xüsusi xidmət orqanlarımızın almasıdır. Əsas odur ki, hakimiyyətin özü bu məsələdə qərarlı olsun. Saziş təbii ki, Azərbaycanın maraqlarına uyğun imzalanmalıdır. Bu olarsa, dövlətin xüsusi xidmət orqanı qarşısında tələbləri, göstərişləri olacaq. Hər cür təxribatların qarşısını almaq üçün işlər görüləcək. Əgər bəhanə edilib saziş imzalanmayacaqsa, mümkündür ki, o zaman da təxribatlar baş versin. Əsas odur ki, hakimiyyət bu məsələdə birmənalı qərarlı olsun. İstənilən halda maraqlarımız nəzərə alınmalıdır. Avropa İttifaqı hələ də Dağlıq Qarabağ münaqişəsinin həlli bəndinin müqaviləyə salınmasında tərəddüd edir. O bəndi sazişə salmaqdan çəkinirlər. Bu barədə danışıqlar gedir. Əgər o bənd ora salınmayacaqsa, bizim Ümumdünya Ticarət Mərkəzinə üzv olmağımızın, seçki qanunlarını dəyişməyimizin, insan haqları ilə bağlı müəyyən işlər görməyimizin, siyasi məhbusları azad etməyimizin heç bir mənası qalmayacaq. Çünki bu məsələlər Dağlıq Qarabağ probleminin yanında ikinci dərəcəlidir. Biz ciddi bir dövr ərəfəsindəyik. Azərbaycanın bu savaşda ağ bayrağı yoxdur və olmayacaq da. Bu təxribatların qarşısını almaq ilk növbədə xüsusi xidmət orqanının üzərinə düşür. Amma bu işdə bir daha deyirəm ki, hakimiyyətin xüsusi qərarlığı olmalıdır. O olmasa, hər bir bəhanə ola bilər. Heç bir bəhanəyə biz imkan verməməliyik. Təbii ki, Azərbaycanın maraqları öndə tutulmaqla".

İ.İsmayıl hansı istiqamətlərdə təxribatların ola biləcəyi barədə ehtimallarını da bölüşdü: "Avropa İttifaqını nələr qıcıqlandıra bilərsə, o istiqamətdə təxribat cəhdləri mümkündür. Burada hər hansı bir terror törədilərsə, Avropa terrora məruz qalan ölkə kimi sadəcə bizi tanıyacaq. Amma burada hər hansı bir avropalıya, Avropa strukturlarının nümayəndələrinə, o cümlədən, İsrail nümayəndəsinə hər hansı bir təxribat olarsa, bu sazişə ciddi mane yarada bilər. Zamanında cənubda belə bir terrora cəhd olmuşdu. Yəhudi müəllimi öldürmək planı qurulmuşdu. Təxminən o istiqamətdə cəhdlər olarsa, təbii ki pis qarşılanacaq, bizə qarşı münasibət pis olacaq. Cəbhə xəttində ermənilər təxribatlar edəcəklər, bizimkilər əks cavab verəcəklər və onlar da deyəcəklər ki, demokratik cəmiyyət formalaşdırmaq istəyən Ermənistana qarşı bu cür tədbirlər görülür, sülh tədbirlərindən yayınır, biz bunu qəbul etmirik. Avropa dəyərlərinə düzgün yanaşmalıyıq. Daxildə insan haqlarını pozan addımlar atılarsa, bu da təxribat kimi qəbul olunmalıdır. Çünki bunlar dünya mətbuatında geniş işıqlandırılacaq. Onun üçün də bu günlərdə Avropa dəyərlərinə zidd olan heç bir siyasət yürütməməliyik".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# İcra başçısının xanım müavini Elinanın intiharına görə dindirildi

## Lalə Məmmədova: "Heç kəsə belə "Məktəb illəri" arzulamamışdım"

**Aprelin 4-də 162 saylı məktəbdə 14 yaşlı Elina Hacıyevanın məktəbin 3-cü mərtəbəsindən özünü ataraq intihar etməsi həm cəmiyyəti, həm də təhsil sistemini silkələmiş oldu. Hadisənin araşdırılması prosesində məlum oldu ki, yeniyetmə qız məktəbdə ona olan təzyiqlər, məktəb direktorunun və rəhbərliyinin özbaşınalığı üzündən intihara əl atıb və faciəvi şəkildə dünyasını dəyişib.**

Ötən həftəsonu mətbuat konfransı keçirən təhsil naziri Ceyhun Bayramov deyib ki, Elina Hacıyevanın ölümü ilə bağlı direktor və direktor müavininin əmək müqavilələrinə xitam verilib, məktəb psixoloqu işdən kənarlaşdırılıb. Həmçinin sinif rəhbərinə qarşı müvafiq intizam tədbirlərinin görülməsi qərara alınıb.

Qeyd edək ki, sosial şəbəkələrdə məktəbin direktoru Sevin Abbasovanın həbs olunması, tərbiyə işləri üzrə direktorun müavini Lalə Məhərrəmova, sinif rəhbəri Çimnaz Mehdiyeva və məktəbin psixoloqu Könül Ağayeva barəsində isə ciddi cəza tədbirləri görülməsi ilə bağlı çağırışlar edilir. Baş Prokurorluq bununla bağlı bildirib ki, 2004-cü il təvəllüdlü Elina Hacıyevanın təhsil aldığı məktəbin üçüncü mərtəbəsindən özünü ataraq intihara cəhd etməsi faktı ilə bağlı Cinayət Məcəlləsinin "özünü öldürmə həddinə çatdırma" maddəsi ilə cinayət işi başladılıb, şagirdin təhsil aldığı məktəb və sinif rəhbərliyi, habelə digər şahidlər dindirilib.

Qeyd etdiyimiz kimi, hadisənin gedişatında bir çox tükürpədici məqamlar ortaya çıxmaqdadır. Mətbuatda yayılan informasiyalardan belə məlum olur ki, yeniyetmə qız intihar edəndən sonra iki saat yerdə qalıb. Yalnız iki saatdan sonra təcili yardıma müraciət olunub. Bu müddət ərzində Elina sorğu-suala tutulub. Unikal.org saytının yazdığı məlumata görə, şagirdi sorğu-sual edən Səbayel Rayon İcra Hakimiyyətinin müavini Xalidə Bayramova ifadə vermək üçün Bakı Şəhər Prokurorluğuna çağırılıb, Eina Hacıyevanın intiharı ilə bağlı ifadəsi alınıb. Xəbəri Səbayel Rayon İcra Hakimiyyətindən təsdiqləyiblər.

"Məktəb direktorlarının böyük əksəriyyətinin arxasında duran deputatlar və məmurlar var. Həmin məktəb direktorları daha çox özbaşınalıq edir və məktəbdə ayrı-seçkilik mühiti yaradırlar. Məlum oldu ki, 162 saylı məktəbin direktorunun arxasında Səbayel Rayon İcra Hakimiyyəti başçısının müavini Xalidə Bayramova durürmuş". Bu sözləri təhsil eksperti Etibar Əliyev sosial şəbəkədə öz səhifəsində qeyd edib. Ekspert bu və buna bənzər hadisələrin qarşısının alınması üçün müəyyən qabaqlayıcı tədbirlər görülməli, bütün məktəb direktorlarının bioqrafiyaları araşdırılmasının vacibliyini vurğulayıb.

Mərhum məktəbli qız üçün 162 saylı məktəbin önündə iki aksiya keçirilib. Aprelin 12-də keçirilən ilk aksiya zamanı Elinanı ananlar məktəbin qarşısına toplaşaraq gül dəstələri qoyub, şamlar yandırıblar. Aprelin 13-də "Məktəbdə zorakılığa son" adlı aksiya keçirilib.

Elinanın intiharı təkcə ölkəni, cəmiyyəti deyil, həm də məşhurları da ayağa qaldırıb. Hadisə ilə bağlı məlumat yayılandan az sonra ən məşhur sənətçilər sosial şəbəkə, mətbuat vasitəsi ilə cəmiyyətə, ölkə rəhbərinə müraciət ünvanlayıb, yeniyetmə qızın ölümündə günahı olan hər kəsin cəzalandırılmasını istəyib. Onların arasında xalq artistləri, əməkdar artistlər də var. Son olaraq isə əməkdar artist Lalə Məmmədova Elina üçün bunları yazıb: "Yerin cənnətdir, Elina. Ancaq mən heç kəsə belə "Məktəb illəri" arzulamamışdım. Hərdən düşünürəm ki, Elinanın ölümündə mənim də günahım var. Hər birimiz övladlarımıza "məktəb ikinci evindir" deyirik. Onlar günün yarıdan çoxunu məktəbdə keçirir. Müəllimlik ali peşədir. Əgər sənətinizi sevmirsinizsə, başqa iş tapın özünüzə. Mən də anayam, övladım qarşısında borcum, məsuliyyətim var...







Elinanın anasının çox ağır yükü var, ömrünün sonunadək daşıyacaq. Analar onun nələr çəkdiyini anlayır. Bu, bizə dərs olmalıdır. Boşansaq belə, övladlarımızı diqqətsiz qoymamalıyıq. Çox həssas yaş dövrü keçirlər. Bu 11 il ərzində formalaşırlar. Orta məktəb müəllimlərinin məsuliyyəti böyükdür. Onlar anlamalıdır ki, hər bir uşaq individualdır. Hər fərdə ayrı yanaşmalıdılar. On üç yaşlı və beş yaşlı körpə qızım var. Nəyisə ötürərəm deyə, vicdan əzabı məni izləyir. Azərbaycanın 10 milyoncu vətəndaşı dünyaya gəldi, amma biz Elinanı itirdik. Günahı olan hər kəs cəzalanacaq".

Xatırladaq ki, prezident İlham Əliyev məktəbli qızın intihar hadisəsini nəzarətə götürüb və Elinanın ölümündə günahkar olanların cəzalandırılacağı gözlənilir.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 79 (7249) 15 aprel 2019

# "Assanc hadisəsi" Zamirə Hacıyevanın həbsi təhlükəsini artırdı

## "Dumanlı Albion" varlıların cənnətindən sürətlə uzaqlaşmağa başlayıb, bu isə polis nəzarətində olan azərbaycanlı bankir xanımına yaxşı heç nə vəd etmir...

**"WikiLeaks" saytının yaradıcısı Cullian Assancın ötən həftə Londonda həbsi "Dumanlı Albion"a sığınan Zamirə Hacıyeva mövzusuna diqqəti artırır. Məxfi sənədlərin ictimailəşdirilməsi ilə məşhurlaşan Cullian Assancın 7 il ərzində sığındığı Ekvador səfirliyindən bu cür çıxarılacağını ən pessimist təhlilçilər belə ağıllarına gətirmirdilər. Bu isə ümumilikdə varlıların cənnəti hesab edilən Londonun artıq əvvəlki şərtlərdən yaxa qurtarmağa çalışdığını göstərir. Azərbaycandan Londona sığınan məşhur isimlər arasında ilk yerlərdə adı gələnlərdən biri də Beynəlxalq Bankın sabiq sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyevadır.**




Məlum olduğu kimi, Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevin işi üzrə Bakı Ağır Cinayətlər Məhkəməsində yeni proses davam etdirilir. C.Hacıyev bundan əvvəl 15 il müddətinə azadlıqdan məhrumetmə cəzası alıb. Hazırda o, yeni ittihamlar üzrə sorğu-sual olunur. Ölkədən milyardlarla pulun çıxarılmasında ittiham edilir.

Onun həyat yoldaşı Zamirə Hacıyeva 2018-ci ilin sonunda London məhkəməsində varidatı ilə bağlı sorğu-sual edilib. Xanım Hacıyevaya varidatın mənbəyini açıqlamaq üçün vaxt verilib. Westminster Magistrates Məhkəməsində keçirilən inzibati iclasda növbəti məhkəmənin 24, 26, 27 və 28 iyun 2019-cu il tarixlərində keçiriləcəyi bildirilib. Bu, o deməkdir ki, 2 ay sonra Assancın taleyini Zamirə Hacıyeva da yaşaya bilər. Onun məhkəmə hökmü ilə Azərbaycan tərəfinə təhvil verilməsi artıq qaçılmaz görünür.

Bakı Ağır Cinayətlər Məhkəməsində Cahangir Hacıyev, onun bacanağı İsmayıl Hidayət-zadə, sabiq deputat Dünyamin Xəlilov və digərlərinin cinayət işi üzrə məhkəmədə də Zamirə Hacıyevanın adı tez-tez hallanır.

İttihama əsasən, 2001-2015-ci illərdə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sədri vəzifəsində işləmiş C.Hacıyev ölkədən çıxardığı milyardların bir qismini Londonda yaşayan həyat yoldaşının bank hesablarına köçürüb. Böyük Britaniyada korrupsiyaya qarşı mübarizə qanununun ilk hədəfi olan Z.Hacıyeva hazırda Londonda 11.5 milyon funt sterlinqə aldığı (15.13 milyon dollar) evinin əlindən alınmamasına çalışır. O, 10 il ərzində Londonun məşhur dükanı "Harrods"da 16 milyon funt sterlinq (35.85 milyon manat) xərcləyib və elə həmin mağazanın yanında - Londonun ən bahalı ərazilərindən birində ev alıb. O, həmçinin Berkshire qraflığında qolf klubunu alıb. Ascot kəndinin yaxınlığında təmtəraqlı qolf kursu və əmlakını - "Mill Ride Golf Club"u almaq üçün 10 milyon funt (13.15 milyon dollar) xərcləyib. Z. Hacıyevanın 42 milyon funta (55.24 milyon dollar) "Gulfstream G550" jet təyyarəsi aldığını da ortaya çıxıb. Onun ailəsinə aid olan 400 min sterlinqdən çox dəyəri olan zinət əşyaları müsadirə edilib və "Christie" auksionunda satışa çıxarılması nəzərdə tutulub.

Z.Hacıyeva 2018-ci ilin sonunda İngiltərənin paytaxtı Londonda saxlanılıb və sonradan girov müqabilində zaminə buraxılıb. 55 yaşlı Z.Hacıyeva Britaniyada ilk dəfə tətbiq edilən "İzahedilməz Sərvət Sərəncamı" (UWO) çərçivəsində həbs olunmuşdu. Bu sərəncama əsasən, o, var-dövlətini hansı mənbədən əldə etdiyini açıqlamalıdır. Londonun Vestminster rayonunun Magistrat Məhkəməsində məlum olub ki, o, Azərbaycan tərəfinin tələbi əsasında London polisi tərəfindən saxlanılıb. Z.Hacıyevanın həbsi onun Bakıya ekstradisiyası barədə xahişlə bağlıdır. Məlumata görə, ona qarşı 2 mənimsəmə ittihamı irəli sürülüb.

Z.Hacıyeva hazırda Londonda polis nəzarətindədir və məhkəmənin tələbini yerinə yetirib xərclədiyi pulların mənbəyini açıqlaya bilməsə, həbs edilə və Azərbaycan tərəfinə təhvil verilə bilər.

Yada salaq ki, Azərbaycan hüquq-mühafizə orqanlarının əməkdaşlarından ibarət qrup 2017-ci ildə Londona ezam edilərək orada Z.Hacıyevanın həbsi üçün yerli hüquq-mühafizə orqanlarına müraciət ediblər. Həmin vaxt sübut çatışmazlığına görə Z.Hacıyeva Azərbaycan tərəfinə təhvil verilməyib. Bundan sonra, 2018-ci ildə Britaniyada potensial çirkli pullara sahib olan şübhəli korrupsioner xarici rəsmiləri hədəfləmək üçün yeni qanun - UWO qəbul edilib. UWO-nin Z.Hacıyevanın ekstradisiya məsələsinin həllinə imkan yaradacağı da istisna deyil. "Assanc işi" isə göstərir ki, "Dumanlı Albion" varlıların cənnətindən sürətlə uzaqlaşmağa başlayıb. Bu isə Z. Hacıyeva və digərlərinə yaxşı heç nə vəd etmir...

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Azərbaycanda 300 min dolları mənimsəyən şəxs Şimali Qafqazda tutuldu

**Şimali Qafqazda, Kabardin-Balkar Muxtar Respublikasının Leskensk rayonunda dələduzluğa görə beynəlxalq axtarışa verilmiş Azərbaycan vətəndaşı tutulub.**

Virtualaz.org xəbər verir ki, həmin şəxs "Urux" federal nəzarət-buraxılış məntəqəsində ələ keçib.

Bu şəxs xüsusilə iri məbləğdə dələduzluğa görə Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən beynəlxalq axtarışa verilib. Onun dələduzluq əməli nəticəsində dəymiş ziyan 284 min dollardan çoxdur.

Şəxsin barəsində Azərbaycanda qiyabi olaraq həbs qətimkan tədbiri seçilib.

Leskensk rayon prokurorluğu yerli məhkəməyə bu şəxsin həbs edilməsi barədə vəsatət verib, məhkəmə vəsadəti təmin edib. Hazırda şəxsin barəsində ekstradisiya materialları Kabardin-Balkar prokurorluğuna göndərilmək üçün hazırlanır. Oradan isə materiallar Rusiya Baş Prokurorluğuna göndəriləcək. Ekstradisiyaya qədər həmin şəxs Kabardin-Balkar təcridxanasında saxlanılacaq.

# Esma əfsanəsi və ya yanıq gənclər fenomeni



**Samir SARI**

**Cibimə tələbə bileti qoyub ali məktəb auditoriyasına qədəm qoyduğum gün əyləşdiyim partanın üstündə bir qadın adı oxudum: "Esma". O ad partanın hər santimetrində vardı.**

Dərhal anlaşılırdı ki, bu adı daşıyan hər kimdirsə, olduqca gözəl və yumşaldıb-yumşaldıb desək, komplekssiz bir xanım olub.

Çünki partanın üstündəki yazılarda o qadına həsr olunmuş ədəbsiz şeirlərlə yanaşı, erkək meymun fantaziyasından xəbər verən arzular, istəklər də vardı. Söyüşlərə də rast gəlinirdi. Bəziləri hətta yüngül həyat tərzi keçirən qadınlara el arasında deyilən ən konkret yarlığı onun adından əvvələ yapışdırmışdılar.

İkinci dərsdə başqa bir audotiriyada başqa partada oturası olduq. Burada da partanın üstü o xanımın adıyla, ona həsr olunmuş müxtəlif fikirlərlə doluydu. (Bir sözlə, institumuzda toplam 50 min parta vardısa, 50 mini də Esmanın adıyla bəzənmişdi).

Tənəffüs zamanı istər-istəməz bir-birimizdən soruşduq: "Ay uşaqlar, bu Esma kimdir? Partaların üstü onun adıyla doludur".

1-ci kurs uşaqları, təbii ki, Esmanın kimliyini yalnız təxmin edə bilərdilər. Əvəzində yuxarı kurs uşaqları onu tanıyırdılar. Onlardan öyrəndik ki, Esma 2-3 il əvvəl institumuzun hansısa fakültəsinin rus bölməsində oxuyan gözəl bir qız olub və babalı deyənlərin boynuna, guya institutun gənc müəllimləri və bəzi tələbə yoldaşları ilə eşq macərası yaşayıb.

Beləydi, belə deyildi, onu dəqiqliyi ilə o xanımla eşq münasibətində olanlar bilər, amma burası dəqiq idi ki, Esma institutumuzun seks-simvoluna dönmüşdü, adı dillər əzbəriydi.

Ən qəribəsi o idi ki, məzun olub getməsindən 2-3, hətta 4-5 il keçəndən sonra da Esma unudulmurdu, onun adı əfsanə olaraq qalırdı və yeni partalara yazılmaqda davam edirdi. Hətta bir ara partalara fanerka və linoleuma oxşayan materialdan üzlük çəkdilər, bir həftədən sonra onların da üstü Esma haqında iyrənc sözlərlə dolub-daşdı. Bunları yazanlar isə o qızın üzünü belə görməmişdilər, eləcə ənənəni davam etdirirdilər.

Esmanı üzbəsurət görmək şərəfinə və xoşbəxtliyinə nail olmuş yuxarı kurs tələbələri danışırdılar ki, o qız heç də adının dillər əzbəri olmasından, 3-5 min tələbənin onu "fahişə" kimi tanımasından və belə adlandırmasından, hətta söz atmalarından sıxılmırmış, burnu dik şəkildə, nazlana-nazlana, deyə-gülə gəzirmiş, üstəlik, gözləri ilə onu yeyən yüzlərlə gənc tələbəyə yanıq verirmiş.

Esmanın haqqında yayılan ən populyar fikir "gəzmədiyi oğlan qalmayıb" olsa da, belə məlum olurdu ki, əslində institutun ən yaraşıqlı oğlanları - idmançıları belə ona yaxınlaşa bilməyiblər.

Sonralar başqa məktəblərdə təhsil almış dost-tanışlarla söhbətdən hali olduq ki, bu fenomen digər təhsil ocaqlarında da olub. Onlarda da adı partaların bəzəyi olan, məktəbin seks-simvoluna çevrilən, barəsində "ordan getdi, burdan gəldi" əfsanələri qoşulan, "gəzmədiyi oğlan qalmayıb" iftirasına məruz qalan qızlar olub.

Bu, güman ki, cinsi hissin artıqlığı və cinsi məmnunluğun olmamasından doğan "fenomen"dir. Erkən gənclikdə seksual partnyor tapa bilməyənlər gücü çənələrinə, dillərinə və əllərinə verirlər - danışırlar, qeybət edirlər, partaya, divara öz fantaziyalarını yazırlar. Bəzilərində isə məmnuniyyətsizlikdən yaranan qəzəb hissi ifrata varmış qisas duyğusu oyadır və onlar təyin etdikləri seks-simvolu "fahişə" adlandırır, onun barəsində iyrənc söhbətlər yayırlar - guya ki, qızın əxlaqsızlıq etdiyini öz gözləri ilə görüblər.

Bu iftira və qır-qeybət selinin qarşısını almaq praktik olaraq mümkün deyil. Çünki hərənin bir ağzı var və onları süzmə-qatıq torbası kimi büzüb-bağlamaq olmur. Yalnız bircə yol var ki, bu duruma salınmış qız başına gələni evdə anasına, qardaşına, atasına danışa bilər və hiddətlənmiş qardaş bir gün məktəbə gələr, bacısına sataşanların 3-4-nü məktəbin qarşısında şapalaqlayar. Bəlkə, ondan sonra bir çoxları qorxudan dilini dinməz qoyar. Təcrübə göstərir ki, yiyəsi olan qızları "təqib olunan seks-simvol"a çevirmək çətin olur.

Ancaq indiki dövrdə qardaşın və ya atanın məktəbə gələrək tərbiyəsiz gəncləri şilləmləməsi də mümkün deyil. Adamın etdiyi hərəkətləri telefonla çəkib yayacaqlar, sosial şəbəkə istifadəçiləri də məhz onu yerdən-yerə vuracaqlar, ta deməyəcəklər ki, bu balaca manyaklar bir məsum qızı intihar həddinə çatdırmaqla məşğul idilər.

Xüləs, uzun söhbətdir. Sonda üzümü Esmanın nəvələrinə tutub demək istəyirəm ki, bu yazıda məqsəd simvol nənənizin keçmişini qurdalamaq deyildi, bizim 35-40 ildən bəri hələ də düzəlmədiyimizə diqqət çəkmək idi.

YENİ MÜSAVAT
N 79 (7249) 15 aprel 2019



# Əjdaha kimi şəhər

Zamin HACI
zaminhaci@gmail.com

**“Əslində heyvanın torpaq rəngli dərisi, heysiz gövdəsi qorxunu onların canından çıxartdı. Bütün bunlar həddindən artıq qocalığın əlamətləriydi. Əjdaha əgər bu idisə, yaman qocalmışdı, ölüm ayağındaydı”.**
*(Dino Buzzati, “Əjdahanı necə öldürdülər” hekayəsindən)*

**Bakı Beynəlxalq Avtovağzalının yanından keçirdim, kimsə dedi: “Buranın açılışı oldu”. Sən demə hadisə 2-3 gün qabaq baş vermişdir. Doğrusu, bu avtovağzal neçənci dəfədir açılır - mən bunun hesabını itirmişəm. Rəhmətlik nəqliyyat naziri Ziya müəllim paytaxtımız üçün elə bir problem qoyub gedibdir ki, yüz illərlə əlləşsələr düzəlməyəcəkdir. İndi də avtovağzala girişi hərləyib-fırladıb, yalan olmasın, Xocahəsən gölü tərəfdən eləyiblər. İçəridə isə əcaib labirint düzəldiblər, guya avtobuslar burada dayanacaqdır. O labirinti canlı görməyə dəyər, şəxsən mən bu mühəndis həllinə xeyli güldüm. Planı, projeni kim cızıbsa onun məhşur elektron oyun “Snake” (İlan) azarkeşi olmasına yüz faiz əminəm. Çünki avtobus meydana bir başdan girib ilan kimi qıvrıla-qıvrıla sərnişinləri “udmalı” və yoluna davam etməlidir. Hər halda buna da şükür. GTA oyununun, ya da zombi hücumu tipli oyunların xəstəsi olsa nə edərdik?**

Növbəti dəfə yenilənən şeylərdən biri də Bakının baş planıdır. Xəbər lentində gözümə dəydi: paytaxtın baş planı təxminən 6 milyon dollara hazırlanacaqmış. Görəsən bu, Bakının neçənci və kağız üzərində qalan baş planı olacaqdır? Sanki Bakı əjdahadır, bunun baş planları da çoxludur. Dövri olaraq bizdə belə planlar ortaya çıxır, yalandan müzakirə edilir, şəkillər çəkilir, ancaq sonra yenə baxırsan hansısa qədim binanı söküb yerində xruşşovka-göydələn ucaldıblar. Hazırda Bakının mərkəzi çoxlu belə axmaq binalarla doludur. Yadıma düşənlərdən 3-4-ünü yaza bilərəm: “28 may” tərəfdə, Mərkəzi Bankla qonşu 24 qatlı bina, Nəsiminin heykəlinin yanında Heydər Babayevdən “yadigar” qalmış, oranın panoramını tamam pozan biabırçı tikili, keçmiş Hüsü Hacıyev küçəsində, Şahmat Klubu ilə üzbəüzdəki, Oqtay müəllimə aid edilən bina və sairə. Bakının indiyə qədər baş planı olubsa, bunlar nədir, olmayıbsa, indi tikilib ortaya çıxan nədir? Tarix baxımından gecəqondunu adamların, yoxsa dövlətin tikməsinin hansısa fərqi varmı?

Belə mənzərələrin ortaya çıxmasının isə səbəbi odur ki, paytaxtın idarəçiliyində onun sakinlərinin fikri, rəyi heç kimin vecinə deyildir. Sivil dünyada hansısa şəhərdə baş plan bir yana qalsın, adicə küçəyə səki salınanda orda yaşayanlardan soruşurlar, öyrənirlər. Bələdiyyə seçkiləri həm də bunun üçündür və Bakının böyük şəhər bələdiyyəsi yoxdur. Başqa müzakirə aparmağımızın mənası varmı? Bakı Avropada meri seçilməyən yeganə paytaxt şəhəridir. Bu, çox şeydən xəbər verir. Hətta formal və saxta bir seçkini də paytaxta qıymırlar. Görəsən niyə? Olmaya camaata etibar eləmirlər? Fikirləşirlər millət paytaxtı daha pis günə salar? Hər halda, iki baş bir başdan ağıllıdır, idarəçiliyin müzakirə, şura formaları avtoritar metodlarından daha səmərəlidir - yenə dünya təcrübəsinə istinad eləsək. İri şəhərlərdə bütün tikililər, planlar mütəxəssislərin, medianın, sakinlərin iştirakıyla, tender və müsabiqələrlə aparılmalıdır.

Ancaq Bakı metrosuna 7 ədəd yeni ventilyatorun alınacağı xəbərini müsbət hadisə kimi qarşılayırıq. Ümid edirik heç olmazsa qarşıdakı isti yay aylarında yeraltı tunel və qatarlarda boğulmarıq. Bakı metrosunda havalanma doğrudan ciddi problemdir. Stansiyaları mərmərlə üzləmək, divara mozaika yerləşdirməklə iş aşmır ki. Metro praktik, tibbi, iqtisadi baxımdan səmərəli olmalıdır. Yoxsa baxırsan stansiyanın üstündə Xeopsun ehramını şüşəbənd formada tikiblər, stansiyaya hava vurmağa isə qurğu yoxdur. Nəticədə camaat bu ehramlardan mumiyalanmış vəziyyətdə çıxır. Hələ bəzi stansiyaların cəmi bir giriş-çıxışı olması kimi əcaib, təhlükəli halı demirəm. Tutaq ki, bu, Sovet hökumətinin səfehliyinin nəticəsi idi, bəyəm o dağılandan keçən 30 il ərzində problemi düzəltmək olmazdımı?

Dəli şeytan deyir ki, bəlkə biz sovet hökumətini də təzədən yıxmalıyıq?

# Azərbaycanla Aİ arasındakı saziş ətrafında müəmma çözülür: XİN-dən açıqlama

## Politoloq “sazişin imzalanmasından həm ölkə daxilində, həm xaricdə narahat qüvvələr var” deyir




**Azərbaycanla Avropa İttifaqı arasında bağlanacaq saziş ətrafında gedən müzakirələr səngimək bilmir. Sazişin bəndləri açıqlanmasa da, bu istiqamətdə tərəflər arasında gedən danışıqlar yekunlaşmaq üzrədir.**

İkitərəfli sazişdə, heç şübhəsiz ki, əsas məsələ Dağlıq Qarabağla bağlıdır. Milli problemimizin sazişə bənd kimi salınıb-salınmadığı yönündə müəmmalı vəziyyət yaranıb.

“Avropa İttifaqı (Aİ) ilə imzalanmış sənədlərdə Azərbaycanın ərazi bütövlüyü müzakirə mövzusu olmayıb, ola da bilməz”.

Bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva “Trend”in sorğusuna cavab olaraq bildirib.

L.Abdullayeva deyib: “Son zamanlar bəzi KİV-də ölkəmizin Aİ ilə apardığı yeni saziş üzrə danışıqlara istinad edilərək, guya ki, Aİ-nin ölkəmizin ərazi bütövlüyünü dəstəkləmədiyi ilə bağlı məlumatlar yayılır. Bununla bağlı qeyd etmək istərdim ki, Azərbaycanla Avropa İttifaqı arasında yeni saziş üzrə danışıqlar davam etdirilir.

Sizi əmin edirəm ki, Aİ ilə Azərbaycan arasında imzalanmış digər ikitərəfli və çoxtərəfli sənədlərdə, Aİ institutları tərəfindən son illərdə qəbul edilmiş qətnamə və bəyanatlarda olduğu kimi Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü heç vaxt müzakirə predmeti olmayıb və ola da bilməz”.

“Atlas” Araşdırmalar Mərkəzi də bununla bağlı mövqeyini açıqlayıb: “Azərbaycan üçün ən vacibi enerji əməkdaşlığının genişləndirilməsidir. TANAP boru xətti 2020-ci ildə hazır olacaq. Azərbaycan bu boru xətti ilə öz qazını Avropaya çatdıracaq. Ona görə də rəsmi Bakı TANAP tikilənə qədər-elə bu il Brüssellə strateji sazişin imzalanmasında maraqlı olmalıdır. Belə olan halda sazişin imzalanması niyə gecikir?

Bəzi xəbərlərə görə, rəsmi Bakı həmin sazişdə Azərbaycanın ərazi bütövlüyünün birmənalı vurğulanmasını istəyir. Müxtəlif məlumatlara görə, guya avropalı diplomatlar tərəddüd keçirirlər. Aydındır ki, rəsmi Bakı haqlı olaraq istəyir ki, sənəddə belə bir bənd yer alsın: “Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır”. Bu səndə etiraz edəcək bir dövlət var - Ermənistan. Ancaq Ermənistan elə bir güc deyil ki, Avropa İttifaqı İrəvanın etirazına görə ərazi bütövlüyü ilə bağlı bənddən imtina etsin".

Mərkəz əslində bu bəndin Avropanın da maraqlarına uyğun olduğunu qeyd edib. Çünki Avropa İttifaqı Ukraynanın və Gürcüstanın ərazi bütövlüyünü birmənalı dəstəkləyir. Avropa Parlamenti Azərbaycanın ərazi bütövlüyünü vurğulayan bir neçə qətnamə qəbul edib. Odur ki, eyni bəndin sazişə salınması Brüssel üçün problem olmamalıdır: “Avropa İttifaqı ilə strateji sazişin imzalanmasıyla bağlı Azərbaycanda fərqli baxış yoxdur. Başda hakimiyyət olmaqla, müxalifətin bütün spektri Bakı ilə Brüssel arasında strateji əməkdaşlıq sazişinin imzalanmasının tərəfdarıdır. Ən vacibi də budur.

Sazişin imzalanmasını əngəlləyən səbəblərdən biri Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyünü gecikdirməsidir. Rəsmi Bakı bu üzvlüyün əleyhinə deyil. Sadəcə, rəsmi Bakı Azərbaycanda rəqabət qabiliyyətli məhsullarının istehsalı hədəfinə çatdıqdan sonra Ümumdünya Ticarət Təşkilatına üzvlük danışıqlarını intensivləşdirməyi planlaşdırır. Ancaq bu üzvlüyün gecikdirilməsi Brüssellə strateji sazişin imzalanmasına mane olmamalıdır. Bakı ilə Brüsselin imzalayacağı sazişdə bəndlərdən biri kimi Azərbaycanın qısa müddətdə Ümumdünya Ticarət Təşkilatına üzvlüyünə nail olacağı yazıla bilər.

Azərbaycanda demokratik təsisatların inkişafı bəndi də sənəddə əks olunacaq. Brüssel istəyir ki, onunla əməkdaşlıq sazişi imzalayan dövlət insan hüquqlarına və demokratik təsisatların fəaliyyətinə hörmət etsin, vətəndaş cəmiyyətinin inkişafına dəstək versin. Bu bəndin varlığı Azərbaycanın özünə lazımdır ki, bu sahədə də islahatların dərinləşdirilməsi təmin edilsin".

Politoloq Əhəd Məmmədli sazişin bağlanmasından narahat olan qüvvələrin olduğuna işarə vurdu: “Azərbaycanla Avropa Birliyi arasında saziş məsələsi gündəmə gələndən nədənsə istər daxildən, istər xaricdən bəziləri bu sazişin bağlanacağından narahat olublar. Bu sazişə qarşı bir kampaniya başlanıb. Əvvəl deyildi ki, Avropa İttifaqı ilə sazişdə demokratiyadan bir söz deyilməyib, indi də başlayıblar danışmağa ki, guya bu sazişdə ərazi bütövlüyümüz tanınmayıb. Amma nədənsə heç kəs ərazi bütövlüyümüzün tanınmadığı bəndi göstərmir. Eynən də həmin müqavilənin demokratiya ilə bağlı da faktlar göstərilmir. Sadəcə, deyirlər ki, bu belədir, lakin niyə belədir göstərmirlər. Gəlin açıq danışaq, fikrimcə artıq nəyin nə, kimin kim olduğunu göstərmək zamanıdır. Azərbaycanla Avropa İttifaqı arasında sazişin imzalanmasında Rusiya çox narahat olduğundan hərəkətə keçdi. İstər iqtidar, istər müxalifət, istərsə də bitərəf sektorda Moskvaya bağlı qüvvələr yuxarıda qeyd edilən imzalanmaya antitəbliğat kampaniyasına başladılar. Əvvəl demokratiya, sonra da ərazi bütövlüyümüzü bəhanə etdilər. Guya bunları demokratiya, ərazi bütövlüyümüz narahat edir. Əslində isə narahat edən Azərbaycanın Rusiya ilə deyil, Avropa Birliyi ilə belə bir sazişi imzalanmaq niyyətidir. Avropa Birliyinin Azərbaycanla sazişdə ərazi bütövlüyümüzü tanımağa tərəddüd etməsi və bu müqavilədə həmin bəndin salınmaması müzakirəsinin başlanılması tapşırığının Moskvadan gəlməsi daha çox realdır. Rəsmi Bakı dərhal ərazi bütövlüyümüzün tanınmaması müqaviləsinin imzalanmasının mümkünsüzlüyündən danışaraq yeni müqavilə üstündə işlədildiyi xəbərini yaydı. Moskva Brüssellə Bakı arasında müqaviləyə kölgə sala bildi. Amma biz imkan verməməliyik ki, məlum ”beşinci kalon" həmin sazişi ümumiyyətlə pozmağa nail olsun. Azərbaycan Türkiyə və Avropa tərəfə addımlayır. Rəsmi Bakıya bu düzgün seçimində cəmiyyət olaraq dəstək olmalıyıq. Aydın məsələdir ki, ərazi bütövlüyümüz mübahisə mövzusu ola bilməz. Azərbaycan buna heç vaxt getməz. Azərbaycanla Avropa İttifaqı arasında Qarabağın ayrılmaz bir hissəmiz olduğu tanınması şərti ilə müqavilə mütləq imzalanmalıdır. Bu Azərbaycanın milli maraqlarına cavab verən bir sazişdir. Bu sazişin qarşısını almaq istəyən qüvvələrin məkirli planlarının həyata keçməsinə imkan verməməliyik. Ola bilsin ki, sazişdə müəyyən çatışmazlıqlar, əksikliklər olsun . Lakin bu o demək deyil ki, bu müqavilədən tamamilə imtina edilməlidir. Bütün əksikliklər, çatışmamazlıqların üstündə işlənilib, məlum saziş hökmən imzalanmalıdır. Azərbaycan Qarabağın ərazisi olduğunu bəndə salınmasına nail olub, müqaviləni imzalamalıdır. Fikrimcə, mümkünsüz bir əngəl deyil. BMT, İslam Təşkilatı kimi Avropa Birliyi də Qarabağı Azərbaycanın ərazisi kimi tanıyacaq və nəhayət ki, məlum müqavilə imzalanacaq. Bizim üçün məlum sazişin əhəmiyyəti böyükdür. Ona görə də emosiyalara qapılmayıb, həssas davranıb, milli maraqlarımızın qorunması şərti ilə Avropa Birliyi ilə saziş bağlanılmalıdır".

**❑ Cavanşir ABBASLI, “Yeni Müsavat”**



# Bu gün Moskvada kritik Qarabağ görüşüdür-"Lavrov planı" yenə masada

## Azərbaycan və Ermənistan XİN başçıları Sergey Lavrovun iştirakı ilə Rusiya paytaxtında nələri müzakirə edəcək?; Elmar Məmmədyarov "mənimlə anlaşmayan Zakir Həsənovla anlaşmalı olacaq" xəbərdarlığından sonra ilk dəfə Mnatsakanyanla qarşı-qarşıya gəlir; **politoloq:** "Nazirləri görüşdürürlər ki, heç olmasa payıza qədər toqquşma ehtimalını önləsinlər"

**Bu gün, aprelin 15-də Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı növbəti görüşü olacaq. Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyan arasındakı budəfəki görüş Rusiya paytaxtında keçiriləcək.**

Martın 28-də Vyanada, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə baş tutan görüşdə Azərbaycan və Ermənistan XİN başçılarının Moskvada bir araya gətirilməsi barədə razılıq əldə olunmuşdu. Rusiya paytaxtında keçiriləcək görüşün hansı zərurətdən irəli gəldiyi açıqlanmasa da, görünən budur ki, rəsmi Moskva prosesləri nəzarət altında saxlamağa çalışır. Bundan əvvəl Rusiya XİN rəhbəri Sergey Lavrov ayrı-ayrılıqda həm ermənistanlı, həm də azərbaycanlı həmkarı ilə bir araya gəlmişdi və bu görüşlərin hər ikisi Rusiyada baş tutmuşdu. Maraqlısı bu idi ki, Zöhrab Mnatsakanyanın qəfildən "itməsi" barədə xəbərləri elə erməni mənbələri yaymışdı. Sonradan onun Lavrovun hüzuruna getdiyi bəlli oldu. Ehtimal olunurdu ki, Ermənistan XİN rəhbəri liderlərin qarşıdakı görüşü ilə bağlı təlimat almaqdan ötrü Rusiyaya uçub. Azərbaycan XİN başçısı Elmar Məmmədyarov isə Lavrovla görüşdən sonra Ermənistana ünvanlı kifayət qədər sərt mesajları ilə diqqət çəkmişdi. Nazir bildirmişdi ki, Lavrov Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün Moskvada keçirilməsini və görüşdə iştirak etməsini istəyir.

Qeyd edək ki, həmsədrlərin təşəbbüsü ilə keçirilən Paris görüşündə nazirlər arasında dörd saatlıq müzakirələr aparılmışdı və yekun sənədində tərəflərin xalqları sülhə hazırlamaqla bağlı razılaşma əldə etdikləri açıqlanmışdı. Bunun ardınca liderlərin bir dəfə qeyri-rəsmi, bir dəfə isə rəsmi səviyyədə Qarabağ məsələsini müzakirə etməsi və bütün bu görüşlərin Avropada baş tutması Rusiyanı narahat etməyə bilməzdi. Kreml Qarabağ məsələsinə bölgədə qalmağın vacib elementi kimi baxdığından prosesə təsir imkanlarını daim saxlamağa çalışır. Bu mənada Lavrovun təşəbbüsləri əbəs deyil. Şimal qonşumuz əvvəlcə xalqların sülhə hazırlanması, növbəti görüşdə isə humanitar əlaqələrin qurulması barədə anlaşmanın əldə olunmasını sakit qarşılaya bilməzdi. Düzdür, hər görüşdən və razılaşmadan sonra Ermənistanın destruktiv fəaliyyəti müşahidə olunub və bu da danışıqların perspektivinə ümidləri heçə endirib. Ancaq istisna deyil ki, Rusiya Ermənistana etibar etmədiyi üçün onu Qərb dairələri ilə baş-başa buraxmaq istəmir. "Soros uşaqları"ndan ibarət olan Nikol Paşinyan hökumətinin Qərbin diktəsi ilə oturub-durması şəraitində Moskva narahat olmaya bilməz. Odur ki, Rusiyanın yenidən "Lavrpov planı"nı masaya çıxara biləcəyi də səslənən gümanlar sırasındadır.

"Lavrov planı" prezidentlərin 2012-ci ildə, Kazan şəhərindəki görüşündən sonra gündəmə gəlib. Bu planda vurğulanırdı ki, 5 rayonun qaytarılması üçün prinsipial olaraq razılaşdırılıb. Ancaq hesab olunur ki, bu plan Azərbaycanın tələyə salınmasından başqa bir şey deyil. 2016-cı ilin aprel döyüşlərindən sonra xarici ölkə rəsmiləri arasında ilk olaraq özünü İrəvana yetirən Rusiya XİN rəhbərinin sonrakı dönəmlərdə açıq-aşkar ermənipərəst siyasət yürütməsinin hamılıqla şahidi olmuşuq. Bu mənada Lavrovun hazırladığı tənzimləmə variantının Azərbaycanın milli maraqlarına uyğun olduğuna ancaq sadəlövhlər inana bilər. O da istisna deyil ki, Rusiya XİN rəhbəri hərtərəfli tellərlə bağlandığı Ermənistanı müharibə riskindən xilas etmək üçün növbəti görüşə təşəbbüs göstərib. Reallıq budur ki, Ermənistan rəhbərliyinin son davranışları, Azərbaycanın yeni ərazilərini işğal edə biləcəyi ilə bağlı sərsəm bəyanatlar verən müdafiə naziri David Tonoyanın dedikləri, N.Paşinyanın onu açıq müdafiə etməsi rəsmi Bakının kəskin reaksiyalarına səbəb olub. Qeyd edək ki, Tonoyan "ərazilər əvəzinə sülh formatını dəyişərək yeni ərazilər uğrunda yeni müharibə prinsipinə üstünlük verəcəyik, biz hücum bölmələrinin sayını artıracağıq ki, döyüş əməliyyatlarını düşmən ərazisində apara bilək" deməklə müdafiə naziri Zakir Həsənovun "İrəvanda görüşəcəyik" xəbərdarlığını aldı. Münasibətlərin çox kəskin olduğu göz önündədir. İş o yerə çatıb ki, proseslərə kifayət qədər soyuqqanlı reaksiya verən E.Məmmədyarov da düşmən ölkəyə "mənimlə anlaşmayan Zakir Həsənovla anlaşmalı olacaq" mesajını verib. Belə olan şəraitdə aprel döyüşlərinin hər an təkrarlana biləcəyi heç kimdə şübhə doğurmur. S.Lavrov istəməz ki, yenidən ermənilərin vayına şahidlik etsin. Azərbaycan ordusunun budəfəki zərbələrinin daha dəhşətli olacağına ermənilər də əmindir.

Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynlinin fikrincə, Rusiya, xüsusən xarici işlər naziri Sergey Lavrov çalışacaq ki, müzakirələr üçün predmetli məsələni ortaya çıxarsın: "Rusiyanın bu məsələdə əlində olan əsas variantı 5 rayonla bağlıdır. Rusiya mətbuatı görüş öncəsi işğal olunmuş 5 rayonun geri qaytarılması müqabilində Dağlıq Qarabağın statusu məsələsinin razılaşdırılması və bölgəyə sülhməramlı qüvvələr gətirilməsi və bu kimi məsələləri gündəmə gətirir. Ancaq hesab edirəm ki, bu, ağlabatan variant deyil. Rusiya moderator kimi imitasiya edəcək və danışıqları irəlilətməyə çalışdığını göstərəcək. Hesab edirəm ki, budəfəki danışıqlarda da irəliyə doğru addım atmaq mümkün olmayacaq". Politoloq az-vision.az-a bildirib ki, nədənsə Moskvanın təşəbbüsü ilə məsələlər qaldırılanda həmişə cəbhədə gərginlik yaranır. "Görünür, cəbhə xəttində gərginliyi artırmaq ermənilərin məqsədi imiş. Ona görə də bir-birinin ardınca Tonoyan və Paşinyan bəyanatlar verdi. Görünən budur ki, danışıqlar prosesində ermənilər tamamilə pozucu rol oynayır və imkan vermir ki, nə isə əldə edilsin", - deyə Q.Hüseynli vurğulayıb.

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu Moskva görüşündə müsbət nəticənin əldə olunacağını gözləmir. "Əgər liderlərin görüşündə ümumi razılaşma yoxdursa, xarici işlər nazirlərinin danışıqlarda irəli gedəcəyini düşünmək sadəlövhlük olardı. Bunu Paşinyanın Strasburqdakı çıxışında yeni heç nəyin olmaması da təsdiq edir. Çünki Paşinyan daha çox mənasız detallar üzərində düşünür. Münaqişənin konseptual həlli haqqında heç nə demir. Bir ifadəsində deyir ki, "Münaqişənin istənilən həll variantı Ermənistan xalqının, "Dağlıq Qarabağ xalqının" və Azərbaycan xalqının maraqlarına uyğun olmalıdır". Göründüyü kimi, o, münaqişənin həllinin birinci Ermənistan xalqının maraqlarına uyğun olması vacibliyini önə çəkir. Bu, əslində Dağlıq Qarabağın Ermənistan tərəfindən işğal oldunduğunun sübutudur. Amma Paşinyan hiylələrliyə gedərək "Azərbaycan xalqı" ifadəsini işlədir ki, guya güzəştə getdiyini göstərsin. Amma təfərrüat haqqında heç bir irəliləyiş yoxdur. Bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov da etiraf edir".

Bu baxımdan ekspert Moskva görüşündən real nəticə gözləmir: "Sadəcə, danışıqlar imitativ xarakter daşıyır və bu danışıqlarda real nəticə əldə olunmayanadək, atəşkəs kövrək qalacaq, cəbhə bölgəsində vəziyyətin gərginləşməsi ehtimalı da yüksəkdir". Politoloq deyir ki, həmsədrlər çox hiyləgər gedişlər edirlər: "Onlar bilirlər ki, yay aylarına doğru toqquşma ehtimalları artır. Həqiqətən yay aylarında bu versiya var. Bunu bilərəkdən əvvəlcə liderlərin görüşünü təşkil etdilər. İndi də nazirləri görüşdürürlər ki, heç olmasa payız aylarına qədər toqquşma ehtimalını önləyə bilsinlər. Payızdan sonra hansısa xırda məsələlərdə uzlaşmanın əldə olunacağına ümid edirlər. Həmsədrlərin əsas fikri atəşkəsin pozulmasının və cəbhə bölgəsində gərginliyin qarşısının alınmasıdır, nəinki danışıqlarda real irəliləyişin əldə olunması, Ermənistana təsir edilməsi və s.

Başqa bir məsələyə diqqət edək".

"Lavrov planı" ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Elçin Mirzəbəyli isə fərqli fikirdə olduğunu vurğuladı: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı danışıqlar prosesində heç vaxt "Lavrov planı" adlı mərhələ olmayıb. Danışıqlar prosesində Rusiyanın müəyyən qədər fəallığının artdığı dönəmdə də Madrid prosesi davam etdirilib. "Madrid prinsipləri"nin, yaxud yenilənmiş "Madrid prinsipləri"nin bü və ya digər istiqamətlərinin Rusiyanın xarici işlər nazirinin iştirakı ilə müzakirə olunması bu istiqamətlərin "Lavrov planı" olduğu anlamına gəlmir və gəlməməlidir də". Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin aprelin 15-nə planlaşdırılan görüşünə gəldikdə, siyasi təhlilçi bildirdi ki, bu görüşdə Sergey Lavrovla yanaşı, ATƏT-in Minsk Qrupunun həmsədrləri də iştirak edəcəklər: "Bu isə o deməkdir ki, danışıqlar zamanı Lavrovun hansısa "eksklüziv" təkliflərlə çıxış edəcəyi gözlənilmir. Rusiya xarici işlər nazirinin bir müddət öncə humanitar tədbirlər, o cümlədən jurnalistlərin qarşılıqlı səfəri ilə bağlı mülahizələrini nəzərə alsaq, Lavrovun görüş çərçivəsində çox güman ki, bu istiqamətdə müəyyən razılaşmaların əldə edilməsinə çalışacağı gözlənilir".

E.Mirzəbəyli qeyd etdi ki, Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" Proqramının əsas istiqamətlərindən biri də Azərbaycanla Ermənistan arasında humanitar tədbirlərin keçirilməsinə, o cümlədən icmalar və cəmiyyətlər arasında dialoqun təşkil edilməsindən ibarət idi: "Rusiya həmin dövrdə də təşəbbüsü ələ almağa və prosesi pozmağa çalışdı və buna da nail oldu. İndi yenə də Vyanada humanitar tədbirlərin keçirilməsi ilə bağlı əldə olunan razılaşmaya Moskvanın müdaxiləsi baş verir. Doğrusu, Sergey Lavrovun iştirak etdiyi hər hansı bir prosesdən nəticə gözləmirəm. İndiki şəraitdə yenə də danışıqlar prosesinin nəzarətdə saxlanılması cəhdləri nəzərə çarpır. Ola bilsin ki, yenidən prosesin pozulması üçün müəyyən aldadıcı və görüntü xarakterli tədbirlərin keçirilməsi ilə bağlı hansısa bəyanatlar verilsin. Amma bütün bunlar konkret nəticənin əldə olunmasına pozitiv təsir göstərməyəcək".

Beləliklə, bu gün Rusiya paytaxtında kritik Qarabağ danışıqları keçiriləcək. Ona görə kritik ki, Məmmədyarov "mənimlə anlaşmayan Zakir Həsənovla anlaşmalı olacaq" xəbərdarlığından sonra ilk olaraq Mnatsakanyanla bir araya gələcək. S.Lavrov isə çalışacaq ki, moderatorluq etdiyi danışıqlarda hansısa anlaşmanın əldə olunmasına nail olsun. Ən azı görüşlə bağlı yekun bəyanatda "irəliləyiş"dən bəhs olunması üçün... Amma rəsmi Bakı bəyan edib ki, Azərbaycan danışıq görüntüsü naminə danışıqları sonsuzadək davam etdirməyəcək...

YENİ MÜSAVAT
N 79 (7249) 15 aprel 2019

# Alman şirkəti Bakının Baş planını aldı-6,3 milyon dollara nələr dəyişəcək?

## “AS+P“ Qahirə, İskəndəriyyə, Sürix, Şanxay, Moskva və İstanbul kimi şəhərlərin ərazi planlaşdırılmasında iştirak edib

**Bakının uzun müddətdir haqqında danışılan Baş planının hazırlanması prosesinin 2-ci mərhələsinə start verilib.**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən verilən məlumata görə, iki mərhələdən ibarət olan bu prosesin birinci mərhələsində təhlil və hazırlıq işlərinin davamı olaraq 2018-ci ilin sonunda beynəlxalq şəhərsalma şirkətinin seçilməsi məqsədilə açıq tender elan edilib. Komitənin, aidiyyəti dövlət orqanlarının nümayəndələrindən və ictimai xadimlərdən ibarət olan tender komissiyasının qərarı ilə Bakı şəhərinin Baş planının hazırlanması üzrə tenderin qalibi Almaniyanın nüfuzlu “AS+P” şəhərsalma şirkəti seçilib.

Bildirilir ki, qalib gəlmiş “AS+P” - qərargahı Almaniyanın Frankfurt şəhərində yerləşən, geniş beynəlxalq təcrübəyə malik olan aparıcı şəhərsalma və memarlıq şirkətidir. 1964-cü ildə təsis olunub “AS+P” şirkəti tərəfindən bu günədək dünyanın müxtəlif ölkələrində 2000-dən çox layihə uğurla icra olunub. Şirkətin təcrübəsi Almaniyanın Münhen, Köln və Frankfurt, Misirin Qahirə və İskəndəriyyə, həmçinin Sürix, Tiflis, Şanxay, Moskva, İstanbul və bir çox digər tanınmış şəhərlərin ərazi planlaşdırılması sənədlərinin hazırlanmasını əhatə edir.

Bakının Baş planının hazırlanması işinin 2020-ci ilin sonunadək başa çatdırılması və sənədin yekun layihəsinin təsdiq üçün Azərbaycan hökumətinə təqdim olunması nəzərdə tutulur. Baş plan şəhər ərazisi daxilində torpaqlardan şəhərsalma məqsədləri baxımından istifadə növlərini müəyyənləşdirir və növbəti 20 il ərzində şəhərin inkişafında iştirak edən bütün qurumlar tərəfindən bu istiqamətdə fəaliyyətdə rəhbər tutulacaq əsas sənəddir. Maliyyəyə gəlincə isə bildirilib ki, Bakı şəhərinin Baş planı 6,3 milyon dollara başa gələcək.

Bakıda tarixi binaların inkişafında alman mühəndislərin rolu böyük olub. Belə ki, məlumatlara görə, İncəsənət muzeyinin, Bakı Lüteran kilsəsinin, Kukla teatrının, Hökumət evinin inşasında alman mühəndislərin birbaşa və dolayı iştirakı olub.

O da məlumdur ki, Bakıda uzun müddətdir ki, plansız şəkildə binalar inşa olunub, obyektlər tikilir. Bəs Baş planın hazırlanması prosesində həmin tikililərin aqibəti necə olacaq?

“Yeni Müsavat”a danışan sahə üzrə ekspert Əzim Məsimov bildirib ki, Bakıda bir çox binaların söküntüsü və ya sürüşdürülməsi həyata keçirilə bilər: “Baş plan ayrı-ayrı tikintilər demək deyil. Bunlar arasında böyük fərq var. Baş plan olmalıdır ki, bu tikintilərin yerini biləsən. Plana uyğun olaraq binalar tikilir ki, həmin tikili, digərləri ilə harmoniya yaratsın. Yaxud da küçələr salınan zaman da harmoniya uyğunluğu nəzərə alınır. Bakıda isə indiyə qədər necə gəldi, binalar tikilib. Almanların Baş plan hazırlama bacarıqlarına şübhə yoxdur. Ancaq nəzərə alaq ki, Bakının indiyə qədər 4 Baş planı olub. Ümumilikdə, 1-ci Baş planı hazırlayırlar, 2-ci planda 1-cinin inkişafı nəzərdə tutulur. 3-cü Baş plan isə 2-cinin inkişafını təmin edir. Beləliklə, növbəti, ondan əvvəlkinin inkişafı əsasında qurulur. İndi də bütün Baş planlar nəzərdən keçirilməli və yeni konsepsiya hazırlanmalıdır. Bununla bərabər şəhərdə olan bütün mövcud problemlər də nəzərə alınır”.



Ekspert bildirib ki, Bakının bütün Baş planlarında Abşeron yarımadası vahid formada göstərilir: “ Burada insanların istirahətindən, iş yerlərindən tutmuş hər bir detal qeyd edilir. Abşeronun da ərazisi keçmişdə, Moskvadan da böyük idi. Bu aspektlərə də diqqət edib, yeni layihənin cizgilərini müəyyənləşdirmək lazımdır. Ərazi istifadəsi, mühəndis şəbəkələrinin inkişafı məlum olmalıdır. Buraya yollar, su və kanalizasiya, elektrik xətlərinin təchizatı və sairə daxildir. Bu işləri də öyrənmək üçün heç olmasa işə yeni mütəxəssisləri cəlb edib, əvvəlki sənədləri qaldırmaq lazımdır. Yəni kənardan bizə Baş plan hazırlayıb versələr də bu plan kor ola bilər. Yuxarıda qeyd etdiyim bütün sənədlərə baxış keçirilməlidir. İndiyə qədər Bakıda xeyli binalar tikilib. Ola bilər ki, bir neçə bina yol çəkilişi üçün əngəl yaratsın. Çünki görürük ki, nə qədər çalışsalar da, şəhərin daxilində tıxac problemi aradan qalxmır. Ona görə də lazım gəlsə bir neçə binanı sökə bilərlər. Yaxud da sürüşdürmə aparıla bilər. Moskva hökumətinin yerləşdiyi bina küçənin ortasında olub, onu sürüşdürüb, indiki yerinə aparıblar. Dünya təcrübəsində bu cür hallar baş verib”.

Ə. Məsimov vurğulayıb ki, pul hərisliyi Bakını indiki halına salıb: “Yeri alıb, maksimum çalışdılar ki, orada bina tiksinlər, çoxlu pul qazansınlar. Ancaq nəzərdə tutulmuşdu ki, köhnə binalar sökülən zaman onun yerində nə qədər mümkündürsə, küçələri genişləndirsinlər. Ancaq yeni binalar tikilən zaman bunu nəzərə alan olmadı. Baş plan əslində var idi, ancaq bunu kənara qoydular ki, sovet dövründən qalıb. Məndə olan məlumata görə, Bakı şəhər icra başçısı 10 il sonra deyib ki, gətirin Baş plana baxaq. Təəssüf ki, bu cür hərəkətlər hazırkı xaosu yaradıb. Bir bina deyil, iki bina deyil. Özü də əksəriyyəti mərkəzdə tikilib. Nə sökmək mümkündür, nə də sürüşdürmək. Ona görə də bu kimi problemlər olacaq. Bu işə yerli mütəxəssislər cəlb olunub, onların fikirləri dinlənməlidir. Kənardan oturub, bunu etmək çox çətin məsələdir. Məsələn, Bakıda turizmin inkişafı üçün böyük problemlər var. Hazırda Bakı 2-3 milyon turisti güclə qarşılayıb, yola sala bilir. Sabah bu rəqəm 10 milyon olarsa, nə edəcəklər? Bütün bu problemlər nəzərə alınıb, işlənməlidir”.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

# Azərbaycanda biznesin ən gəlirli və ən problemli sahəsi-şadlıq evləri

## Ekspert: “Türkiyədə 1000 nəfərlik şadlıq mərasimi 12 min manata başa gəlir, bizdə isə...”

**Azərbaycan iqtisadiyyatında ən çox özünü doğruldan və iş adamlarının sevdiyi biznes sahələrindən biri də şadlıq evləridir. Belə ki, xalqımızın şənlik mərasimlərinə meyilli olması və hətta bir çox hallarda normaları aşması restoran sahiblərinin də işinə yarayır. İlin əksər aylarında toy, nişan, xınayaxdı, kiçik toy, ad günü və sair kimi mərasimlər üçün şadlıq evləri və restoranlara müraciət edilir.**



İqtisadçı ekspert Vüsalə Əhmədova ölkəmizdə sözügedən ictimai-iaşə obyektlərinin fəaliyyəti ilə bağlı bəzi iqtisadi və ekoloji problemlərin olduğunu vurğuladı. İqtisadçının sözlərinə görə, Sovet İttifaqının çökməsindən sonra ölkəmizdə yeganə geniş vüsət alan “şadlıq sarayı biznesi” bəzi məmurların inhisarı altındadır.

V.Əhmədovanın fikrincə, Türkiyədə “Düğün salonları”, Avro Birliyi ölkələrində “Wedding Hall” adı altında bənzər məkanlara rast gəlmək mümkündür ki, oradakı qiymətlər ölkəmizlə müqayisədə dəfələrlə ucuzdur. “Müqayisə üçün bildirim ki, İstanbulun mərkəzində yerləşən, 450-1000 nəfərlik tutumu olan toy salonlarının profesional heyət və musiqiçilərlə birgə icarə haqqı maksimum 10 min TL, yəni 3000 manat təşkil edir. Adambaşı menyu qiymətləri isə spirtli içkilər daxil olmaqla 30-50 TL, manatla 10-15 manat arasında dəyişməkdədir. Ümumi götürsək, 1000 nəfərlik bir yığıncaq bu tip salonda 40 min TL, yəni 12 min manata başa gəlir. Paytaxtımızda yerləşən analoji salonlardan birində adambaşına menyu qiymətləri 250-500 manat arasındadır. Bu salonda 1000 nəfərlik yığıncağın minimum qiyməti 250 min manatdır. Müştərilərə standart menyu təklif edilir ki, bu seçimdən kənara çıxmaq da mümkün olmur”, deyə ekspert bildirib.

“Şadlıq sarayları və restoranlarla bağlı digər bir problem isə onların ekologiyaya vurduğu zərərdir”- deyən iqtisadçı ekspert dünya təcrübəsində müxtəlif texnoloji avadanlıqlardan istifadə edilməklə bu problemin həll edildiyini vurğuladı: “İstər şadlıq sarayları, istərsə də restoranlar olsun, bütün ictimai iaşə obyektləri ölçüsünə, müştəri sayına, xidmət profilinə, ətraf mühitin şəraitinə uyğun erqonomik dizayn edilməlidir. Çox sayda restoran və ya şadlıq sarayları ekoloji meyarlara müvafiq və erqonomik dizayn edilmədiyi üçün sonradan bir sıra problemlər, qəza halları ortaya çıxır. Bir ictimai iaşə müəssisəsi inşa edilməzdən əvvəl ərazinin iqlimindən tutmuş, torpaq quruluşunadək bütün şərtlər ətraflı araşdırılmalı, şadlıq evi və ya restoranın küləyin və günəşin təsirinə məruz qalma səviyyəsi, hava sirkulyasiyası nəzərə alınmalıdır. Xüsusilə kanalizasiya, su, elektrik, təbii qaz, infrastruktur problemi olan ərazilərdə şadlıq saraylarının inşa edilməsi doğru deyil. Ən önəmlisi, ictimai iaşə müəssisələrinin ətrafdakı yaşayış binaları, iş yerləri, məktəblər, universitetlər, ticarət obyektləri, dini obyektlər, parklar, hava limanı, metro ilə arasında olan məsafəyə diqqət yetirilməsi tələb olunur”.

Xarici təcrübəyə toxunan ekspert bildirdi ki, Türkiyənin böyük şəhərləri başda olmaqla, bir çox ərazilərində duman və qoxu restoran sahibləri ilə məhəllə sakinləri arasında narazılıq yaratmasın deyə bələdiyyələrdən “baca icazəsi” alınmaqdadır: “Bunun üçün restoran sahibləri ərizə ilə rayon bələdiyyələrinə müraciət edirlər. Bələdiyyələr bu cür icazələri o halda verir ki, ictimai iaşə müəssisələrindən çıxan duman və qoxu ətraf mühitə heç bir zərər verməsin. Buna görə də, restoranlar yüksək baca və yaxşı filtrasiya sistemləri quraşdırmaq məcburiyyətindədirlər”.

V.Əhmədova dünya təcrübəsində mövcud olan “Yaşıl restoran” təcrübəsinin də ölkəmizə gətirilməsinin məqsədəuyğun olduğunu bildirdi: “Son zamanlar qlobal istiləşmə və aşırı çevrə kirliliyi fonunda "yaşıl restoran" (Green Restaurant) konsepsiyası dünyada geniş vüsət almaqdadır. “Yaşıl restoranların” ənənəvi restoranlardan ən önəmli fərqi enerji və sudan səmərəli istifadə, ətraf mühitə bacardıqca az zərər vurma, tullantıları minimum səviyyəyə endirmə və təkrar emalını təşkil etməkdir. “Yaşıl Restoranlar Birliyi” (Green Restaurant Association) müxtəlif qurumlar tərəfindən 1990-cı ildə ABŞ-da yaradılaraq ekoloji restoran sektoru yaratmaq missiyasını üzərinə götürüb. “Yaşıl Restoranlar Birliyi” tərəfindən hazırlanmış olan lazımi kateqoriyalara uyğun gələn restoranlara “Yaşıl Restoran” sertifikatı verilməkdədir. “Yaşıl Restoranlar Birliyi” sertifikatlaşdırma sistemi 500 ədəd ekoloji standartı özündə ehtiva edir ki, bu tip restoranlarda sağlam qidalanma, yerli və mövsümi meyvə və tərəvəzlərdən, ət və süd məhsullarından, ətraf mühitə zərər yetirməyən taxıl məhsullarından istifadə, təhlükəli tullantıların ayrılaraq səlahiyyətli təşkilatlara çatdırılması, birdəfəlik istifadə olunan əşyaların davamlı ləvazimatlarla əvəzlənməsi, enerji və sudan səmərəli istifadə, dürüst ticarət, xüsusi təhsil almış personal konsepsiyası əsas götürülür. Məsələn, hazırda Türkiyə ərazisində cəmi 6 ədəd bu tip restoran fəaliyyət göstərir ki, həmin restoranlarda rəqəmsal menyulardan, enerjiyə qənaət edən elektron alətlərdən, zibil üyütmə və şüşə qırma maşınlarından, təkrar istifadə edilə bilən aksesuarlardan, suya qənaət edən cihazlardan, orqanik, yerli və mövsümi qida məhsullarından istifadə edilir, suyun sürahidə servis edilməsi, yağ artıqlarının toplanması və qida tullantılarının kompostlaşdırılması təmin olunur”.

❑ **Nərgiz LİFTİYEVA**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 79 (7249) 15 aprel 2019

**Hazırda ölkənin iqtisadi gündəmində müzakirə edilən əsas problemlərdən biri də kredit faizlərinin həddindən artıq yüksək olmasıdır. Məlumata görə, Maliyyə Bazarlarına Nəzarət Palatası Azərbaycanda kreditlər üzrə orta faiz dərəcəsini azaltmaq istiqamətində təkliflər hazırlayır və hazırda proses müzakirə mərhələsindədir. Qeyd edək ki, Azərbaycanda kredit faizləri həddindən artıq yüksəkdir, halbuki depozit faizləri çox kiçik rəqəmlərlə ölçülür. Banklar vətəndaşlardan manat üzrə 7, dollar üzrə 1 faiz ətrafında götürdükləri depozitləri digər vətəndaşlara manatla kreditlər üzrə 30 faizlə, xarici valyuta üzrə kreditləri 12-16 faizlə təklif edirlər. Bu kəskin fərqdən isə yalnız banklar qazanclı çıxırlar.**

# Bankların kredit faizləri gündəmdə-yeni qərar gözlənilir

## İqtisadçılar kredit faizlərini inzibati yolla tənzimləməyi məsləhət görmürlər, bəs çıxış yolu nədir?




İqtisadçı ekspert Vüqar Bayramovun açıqlamasına görə, Azərbaycanda kredit portfelinin həcmi 12 milyard manatdan bir az artıq, depozit portfeli isə 8 milyard manatdır. Bu, o deməkdir ki, depozit portfeli kredit portfelinin 65 faizini təşkil edir. Yəni hər 100 manatın 65 manatı məhz depozit hesabına verilir. Yəni banklar bir vətəndaşdan vəsaiti cəlb edib, bəzi hallarda digər vətəndaşa 5-6 dəfə baha qiymətə təklif edir. Bu baxımdan faizlərin tənzimlənməsi çox vacibdir".

Ekspertlər hesab edirlər ki, kredit faizlərinin inzibati yolla tənzimlənməsi əks effekt verə bilər, bu baxımdan daha çox rəqabətin gücləndirilməsi amili önə çəkilir.

V. Bayramovun fikrincə, bank sektorunda rəqabətin gücləndirilməsi, bankların likvidliyinin artırılması və sağlamlaşdırılması, idarəetməsinin formalaşdırılması istiqamətində fəaliyyətlər güclənərsə, bu praktik olaraq kredit

İqtisadçı ekspert Natiq Cəfərli də "Yeni Müsavat"a açıqlamasında vurğuladı ki, bu məsələnin inzibati yolla həlli mümkün deyil: "Hökumət belə bir qərar versə, bir müddət sonra fəsadlarla qarşılaşa bilərik. Bu fəsadları biz bankların kredit vermə həvəsinin azalmasında görə bilərik ki, son nəticədə, iqtisadiyyatda kredit resurslarının kütləvi şəkildə azalmasına səbəb olacaq. Banklar artıq maliyyə aləti kimi Mərkəzi Bankın qısamüddətli notlarını alaraq, qazanc əldə etməyə çalışacaqlar. Çünki bunlar dayanıqlı bir gəlir mənbəyidir".

İqtisadçının sözlərinə görə, banklara aşağı kredit faizləri diktə edilərsə, bu kredit portfelinin də kəskin azalmasına səbəb ola bilər: "Əgər kredit faizlərinin hansı koridorda olması banklara diktə olunsa, o zaman banklar bu diktəyə baş əysələr belə, bir müddət sonra maliyyə dayanıqlıqları azala bilər. Məcburən depozit faizlərini daha aşağı sala bilərlər ki, bu da insanlarda Azərbaycan banklarına olan inamı bir qədər də zəifllədəcək. Bu da banklardan depozitlərin çəkilməsinə və xarici banklarda daha sərfəli şərtlərlə yerləşdirilməsinə səbəb ola bilər".

N.Cəfərli vurğuladı ki, rəqabətli mühit yaradılmasa, dayanıqlı bank sektorunun inkişafı mümkün deyil: "Bunun yolları həm Mərkəzi Bankın uçot dərəcəsinin aşağı salınması ilə ölkə iqtisadiyyatında likvidliyin artması, ikinci yol isə xarici bankların birbaşa Azərbaycan bazarına daxil olaraq rəqabətli şəkildə işləməsidir. Problemin iqtisadi yolla tənzimlənəsi üsulları bunlardır. Əgər hökumət inzibati yolla kredit faizlərini tənzimləməyə qərar versə, bu orta və uzunmüddətli dövrdə bank sektorunun çox böyük fəsadlarla qarşılaşmalı olacaq. Ona görə də, kredit faizlərinin tənzimlənməsinin iqtisadi üsulları tapılmalıdır. Bunun yolu da rəqabətdən keçir".

Natiq Cəfərli də hesab edir ki, Azərbaycanda kredit faizləri çox yüksəkdir: "Ancaq bu səbəb deyil, nəticədir. Səbəblər başqadır, həm Mərkəzi Bankın düzgün siyasət aparmamasının, uçot dərəcəsi ilə bank kreditləri ilə bağlılığın olmamasının nəticəsidir. Dünyanın hər yerində uçot dərəcəsi ilə kredit faizləri arasında bir orqanik bağ olur. Azərbaycanda bu bağ qopub, Mərkəzi Bank tənzimləmə funksiyalarını normal yerinə yetirə bilmir. Ona görə də, faizlərin yüksək olması normal haldır. Rəqabətsizlik mühitinin olmaması da buna münbit şərait yaradır. Bank sektoru çox dar çərçivədə bir neçə qrupun əlindədir. Burada rəqabət olmadığından faiz dərəcələri yüksək olaraq qalır. Digər tərəfdən faizlərin yüksək olmasına rəğmən insanlar kreditlərdən istifadə edirlərsə, tələbat varsa, deməli iqtisadiyyatda nələrsə düzgün getmir. Ola bilməz ki, Azərbaycanda faiz dərəcələri 25-30 faiz olsun, ancaq rəsmi inflyasiya 2 faiz olsun. Deməli Azərbaycan iqtisadiyyatının ciddi struktur problemləri var ki, belə disbalans yaranır. Təkcə bank sektoru ilə iş bitmir. Bütün iqtisadi münasibətlərin və oyunçuların yenidən tənzimlənməsi lazımdır ki, bank sektoru da normal qaydada inkişaf etsin və fəaliyyət göstərə bilsin. Bunun da yolu rəqabətdən və xarici bankları Azərbaycana birbaşa girişinin təmin olunmasından keçir".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Azərbaycanın xeyir işini pozmaq planı



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Hər ötən gün Azərbaycanı mühüm bir tarixi hadisəyə yaxınlaşdırır. Söhbət mayın ortalarında Avropa İttifaqı (Aİ) və Azərbaycan dövləti arasında imzalanacaq tərəfdaşlıq haqqında sazişdən gedir.**

Əslində, Azərbaycanla Avropanın aparıcı qurumu arasında tərəfdaşlıq münasibətləri uzun illərdir mövcuddur. Müstəqil olandan bəri Avropa Birliyi ölkəmizə 200 milyard dollard yatırıb. Lakin saziş münasibətləri yeni müstəviyə keçirəcək, əməkdaşlığı geridönməz edəcək ki, bu da bir sıra dairələri narahat edir.

2013-cü ildə Milli Şura adlı bir qurumun nizamnaməsində Avropaya inteqrasiya ilə bağlı müddəanın olmasını qəbul edə bilməyən dairələr görün, indiki situasiyada necə həyacanlanıb. İndi söhbət hansısa dairələrin yaratdığı oyuncaq qurumun nizamnaməsindən yox, Azərbaycan dövlətinin imza atacağı sənəddən gedir...

Deməli, heç şübhəsiz, hazırda növbəti məkrli ssenarilər üzərində iş gedir. Bu mənada hörmətli Pənah Hüseynin "bu ayın sonu, gələn ayın əvvəlində ölkənin həm şimalında, həm də cənubunda təxribatlar hazırlanır"-xəbərdarlığını tam ciddiyə almaq lazımdır.

Bir anlıq xatırlayaq: Gürcüstan və Ukrayna Avrointeqrasiya yolunu elan edəndən sonra başına hansı bəlalar gəldi...Təbii ki, Azərbaycan dövləti fərqli siyasi kursunu elan edib, söhbət bərabərhüquqlu əməkdaşlıqdan gedir. Üstəlik, Qoşulmama Hərəkatının sədriyik. Amma bəzi qüvvələr üçün fərqi yoxdur. Aİ ilə imzalanacaq saziş həm iqtisadi, həm də siyasi cəhətdən mühüm əhəmiyyət kəsb edirsə, məkrli niyyətlərin həyata keçirilməsi üçün bəhanələr bitməyəcək.

Odur ki, qarşıdakı dönəmdə cəmiyyət olaraq ehtiyatı əldən verməməliyik. Hakimiyyəti Aİ ilə əməkdaşlıq yolundan döndərmək, ən azı sazişin vaxtını uzatmaq üçün hər cür fitnə-fəsada əl ata bilərlər.

Azərbaycan prezidenti vətəndaşların xeyli hissəsinin rəğbətini qazanan addımlar atmaqla bir çox planları pozdu. Narazı elektoratı hərəkətə gətirib ölkədə xaos yaratmaq istəyənlər üçün bir sıra fərman və sərəncamlar qış aylarında "soyuq duş" effekti verdi. Amma görünən budur ki, ölkəmizdə stabilliyin olmasını sinirə bilməyənlər geri çəkilmək niyyətində deyil.

Bu dəfə "Qarabağ kartı" işə salınıb. Son günlər davamlı şəkildə məlumat yayırlar ki, Avropa İttifaqı ilə imzalanacaq sənəddə Azərbaycanın ərazi bütövlüyü ilə bağlı müddəa yer almayıb. Erməni saytlarını izləyənlər yəqin ki, düşmənin bu mövzuya həvəslə yer verməsini və sevincini müşahidə edir. Düşməni başa düşdük, bəs, özümüzünkülər?

Ölkə daxilində də bəzi qüvvələr iddia edirlər ki, Qarabağ Azərbaycan hökumətinin "yadından çıxıb". Onların yaddaşını "ayıltmaq" üçün prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının nümayəndə heyətini qəbul edərkən dediklərini xatırlayaq: "Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edilməli, Ermənistanın işğalçı qüvvələri işğal olunmuş bütün ərazilərdən qeyd-şərtsiz çıxarılmalıdır. Sonra sülh olacaq və vəziyyət sabit hesab ediləcək".

Fakt budur ki, Azərbaycan Prezidenti Avropa İttifaqı ilə əməkdaşlığın ilkin şərti olaraq ərazi bütövlüyümüz məsələsini qoyub. Hətta danışıqların illərdir uzanmasının, postsovet məkanında yalnız Azərbaycanla eyniadlı sənədin imzalanmamasının əsas səbəbi də Qarabağdır. Ermənilər və ermənipərəst qüvvələr var gücləri ilə sənəddə ərazi bütövlüyünün yer almasına qarşı çıxıblar. Məhz rəsmi Bakının prinsipial və qətiyyətli mövqeyi nəticəsində Aİ prezidenti "Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik" demişdi.

Digər tərəfdən, necə ola bilər ki, Ermənistanla eyni məzmunlu saziş imzalananda ərazi bütövlüyü məsələsi sənəddə əksini tapır, amma Azərbaycanla yox? Hansı hakimiyyət buna göz yumardı? Bu, mümkünsüzdür.

Bu tezisin ortaya atılması səbəbsiz deyil. Məkrli plan müəllifləri bilirlər ki, Qarabağ Azərbaycan xalqı üçün ən həssas mövzusudur. Lokal yanğınlarla kütləvi etirazlar təşkil edə bilməyənlər indi də hakimiyyətə qarşı Qarabağ etirazlarını təşkil etmək niyyətindədirlər.

Azərbaycan Xarici İşlər Nazirliyi də ötən şənbə bəyan etdi ki, "Avropa İttifaqı (Aİ) ilə imzalanmış sənədlərdə Azərbaycanın ərazi bütövlüyü müzakirə mövzusu olmayıb, ola da bilməz". Amma nə faydası? Yenə də iddialar kəsilmir. Kəsilməyəcək də...Hələ mümkündür ki, başqa təxribatlara da əl atılsın, şayiələr yayılsın. Avropa Birliyi ilə əməkdaşlıq sazişi ölkəmizin dünyaya açılması istiqamətində mühüm addımdır. Dövlətimizin xeyir işini pozmaq istəyirlər. Odur ki, hamılıqla ayıq-sayıq olaq! Burada iqtidar-müxalifət yox, Azərbaycan məsələsi var!

# "90-cı dəqiqə... və qol!!!... 44 min uduzdum" - "Topaz"dan reportaj

## Əməkdaşımız totalizator kontorunda qumarbazın başına gələn hekayədən yazır: "500 manat kredit pulunu uduzmuşdum, dostumun verdiyi borcu da uduzsaydım, ya gərək özümü asaydım, ya da..."

**Həftəsonu Dostoyevskinin "Qumarbaz" povestini vərəqləyirdim, öz həyat hekayəsini yaratdığı personajın dili ilə təhkiyə janrında qələmə almış dahi rus ədibi bu əsər haqda yazırdı: "Başlıca məsələ bundadır ki, onun bütün həyat cövhəri, qüvvəsi, dəlisovluğu, cəsarəti ruletkaya sərf olundu..."**

Və...kitabın bu yerində ağlıma batdı ki, niyə də bir qumarxanaya getməyim. Yox, yox, mən nə yazıçı Dostoyevskiyəm, nə qumarbaz Dostoyevski. Sadəcə, bir azart həvəskarının həyat hekayəsini yazmaq üçün axtarışa çıxmaq istədim.

Elədim tənbəllik, getdim şəhərin leqal qumarxanalarından olan "Topaz" bukmeyker kontoruna. İçəri girəndə tüstü-duman, siqaret iyindən göz-gözü görmürdü. Kimisi əlində pivə parçı, xortumlayaraq həyəcanla yarışın canlı nəticəsini gözləyir, kimisi "aləm"lə əlaqəsini kəsib gözlərini "Bukmeyker" qəzetinə dikib, kimisi qələmi gicgahına dirəyib dərin-dərin düşünür ki, hansı proqnoz doğru gələ bilər, kimisi "çay gətir" qışqırıb sifariş verir, kimisi yandakı masada oturandan məsləhət alır və s. ilaxır...

Bu, Hollivud filmlərindəki kazinolara da oxşamaz, "Yeşilcam" kinolarındakı qaranlıq otaqda, başının üstündə bir lapma olan kart qumarına da bənzəməz.

"Topaz"a gələn oyunçuları "Mançester"in, "Yuventus"un, ya da "Qalatasaray"ın taleyi qazanacaqları pul qədər maraqlandırır. Həmçinin, at və tazı yarışlarına pul qoymağa gələn "xəstə"lər də var.

Əslində, biləsiniz, son vaxtlar "Topaz" məntəqələrinə gedənlərin sayı kəskin şəkildə azalıb. Bu azalma yeni məntəqələrin açılmasının da qarşısını alıb. Yəqin ki, təqdir olunmalı haldır. Çünki bu yerlərdə hər şeyini uduzub çıxanlar olub. Sadəcə, həftəsonu olduğu üçün bu dəfə izdiham müşahidə olunurdu. Totalizator məntəqələrinə gedənlərin sayının azalma səbəbinə gəlincə, sırf minimum mərc qoyuluşunun məbləğinin artırılmasıdır.

Əvvəllər bir kupon 1 manat idisə, sonra 2 manata qalxdı, bu da o dərəcədə də ciddi təsir göstərmədi, son dünya çempionatı ərəfəsində "Topaz"ın rəsmi şəkildə hər kupona ən az mərc qoyuluşunu 3 manata qaldırması azart həvəskarlarının bu obyektlərdən demək olar ki, ayağını "kəsdi".



Bir var 3 manata üç ayrı-ayrı kupon yazasan, ən azı birində qalib olmaq şansın var, bir də var 1 kupona 3 manat atıb, uduzasan.

Doğrudur, "Topaz" əvəzində onlayn variantda mərc qoyuluşunu 1 manat edib. Hesab aç, "Milliön" üzərindən uduş qoy, qazandıqca pul kart hesabına otursun. Amma internet üzərindən hesab açıb mərc qoyanlar o qədər çox deyil. İnsanlar məntəqələrə getməyə üstünlük verirdi. Odur ki, obyektlərdə qiymətin 3 dəfə qalxması qumarxanalara gedənlərin sayını azaldıb.

Bizsə Dostoyevskinin "Bir gəncin qeydləri"nin təsiri altında qumarbaz axtarışına çıxarkən nəsibimizə eləsi çıxdı ki, adamın başına gələnlər bir kitablıqdır.

Səid adlı həmsöhbətimizin 34 yaşı var. Dediyinə görə, 15 yaşından variant yazır, bir müddət "Zenitbek" və s. onlayn totalizatorlara uduş qoyub.

Sonra "qara bazar"ın bağlanması onun "Topaz"a üz tutmasına gətirib çıxarıb. Səid deyir ki, bu illər ərzində üst-üstə hesablasa, Bakıda iki mənzilin pulunu itirib: "Sonuncu dəfə 44 min manatı 90-cı dəqiqədə vurulan qolla əldən buraxdım. Təsəvvür elə, İsveçrə Danimarka ilə oynayır (AÇ-2020 seçmə görüşü - E.S), mən də İsveçrənin 3 qollar qalib gələcəyinə mərc qoymuşam. Adamda gərək bəxt ola da... Başqa oyunlar da yazmışam, 100 manat atmışam. Hamısı tutub, oturmuşam evdə, dırnaqlarımı yeyirəm, ətimi çeynəyirəm ki, məni 44 min manatdan 6 dəqiqə ayırır. A kişi, deyirəm də bəxt lazımdır, bəxt... İsveçrə 3:0 udur, 83-cü dəqiqə qurtarır, lənətə gələsən, 84-də Danimarka vurdu, 3:1. Dedim, cəhənnəmə, onsuz da day oyunu aparmışam e, 1 qola heç nə olmaz. Sən saydığını say, gör Danimarka nə sayır. 88-ci dəqiqədə Danimarka birinə də qapıya vurdu: 3:2. Ürəyim partlayır, iki dəqiqə qalıb, hakim də azı üç dəqiqə artıracaq, beş dəqiqə...İçim-içimi yemişəm, bax, indi necə danışıramsa, həmin gün gör necə həyəcanlı olmuşam. Oyunun 89-cu dəqiqəsi, sakitlikdir, pah atonnan, 90-cı dəqiqə Danimarka 3:3 elədi. Düz altı dəqiqəyə 3 qol vurdular, İsveçrənin bütün nəslini "yad eləyirəm".

Hakim artırma elədi, gözləyirəm bəlkə İsveçrə vura, hara vurur, Danimarka "Çin səddi" qurub, top keçmir. Həyatımda unutmadığım oyunlardan idi. Bir yandan o gün 100 manatım getdi, bir yandan 44 min manat itirdim..."

Səid deyir ki, ən pis və ən yaxşı günü isə kredit, sonra tanışından borc götürüb qumar oynaması olub: "Evdən 500 manat vermişdilər, pulu banka vurmalıydım. Amma əclaflıq elədim, getdim hamısını "şot"a atdım. Üç oyundan biri gəlmədi, 500 manat "yandı". Qanım it qanına dönüb, bilmirəm nə edim, evdəkilər bilsələr ki, hamısı qumara gedib, məni kəsərlər. Mən də həmişə uduzan adam deyiləm, bu işdən də başım çıxır, neçə dəfə pis vəziyyətlərdən çıxmışam. Həmin gün beynim çönmüşdü, dostuma zəng elədim, mənə borc pul çatdırdı. Fikirləşirdim ki, bu pulu da uduzsam, ya gərək özümü asım, ya da ölkədən qaçım. Amma Allahın mənə yazığı gəldi, bütün beynimi toparladım, yaxşı bir hesab yazdım.

Həmin gün 1400 manat uddum. Gedib 500 kreditə ödədim, 200 də dostumun borcunu qaytardım. İndi soruşacaqsan ki, qalan 700 manatı da evə aparıb bazarlıq elədim, özümə əyin-baş aldım? Yox, onu da səhər gedib yenə "Topaz"da uduzdum (gülür - E.S) Lazım deyil qardaş, qumardan gələn puldan xeyir olmaz, o pulu da evə xərcləməzlər. Mən içi özüm qarışıq hələ bir adam tanımıram ki, qumardan udduğu pulla xeyir iş görə bilib, ya da maşın, ev alıb. Lap alıbsa da, axıra qədər qismət olmayıb, o evin, maşının başına bir iş gəlir. Çünki o pul başqasının zəhmətlə qazandığıdır, sən onu 90 dəqiqə içində udursan, uduzanların gözü o pulda qalır. Ona görə də mən bu günə kimi böyük pullar da udmuşam və uduzmuşam, heç birini evimiz qapısından içəri salmamışam.




Məsələn, bir dəfə 30 manat mərc qoydum, 120 manat uddum. Həmin gün o pul həkimə-dərmana getdi. Məni kimi davamlı oynayan bir adam, hələ xatırlamıram ki, qumardan udduğum pul bir xeyir işimə dərman olub.

Hə, əgər ayda 3-4 toy dəvətnaməsi gəlibsə, onda həmin pul həqiqətən "halal"dır, apar at toya, 200-300 manat qabağa düş (gülür - E.S).

Bir xeyri yoxdursa, soruşa bilərsən ki, niyə oynayırsan? Vallah, sadəcə, xəstəlikdir, öyrəşmişəm, oynamayanda qala bilmirəm. Həm də ki, yeyib-içmək, pivə, siqaret pulunu çıxarıram da..."

Səidin danışdığı əhvalatlar həddindən çox rəngarəng idi, bəlkə də şişirtməsi, bəlkə də bəlağəti varıydı, amma içində reallıqlar göz qabağındaydı. "Topaz"da onu tanıyan dostları da başları ilə dediklərini təsdiqləyirdilər, hərəsi öz hekayəsini nəql edirdi, ondan gərək qəzetin 16 səhifəsini yazaq.

Sadəcə, bu qısa hekayədə Səidin başına gələnlər bir "nümunə" və dərs olmalıdır, özünün dediyi kimi, qumarın pulundan nə xeyir götürmək olar, nə də o vəsaiti evin kandarından içəri salmağa, övladına nəsə almağa xərcləməyə dəyər...

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat",
Fotolar müəllifindir

# Kəramət Böyükçöl kafedə döyülmə xəbərindən danışdı

## GƏNC YAZAR: "Orda-burda məni tuturlar, qəndə and içirəm, inanıb çıxıb gedirlər"

**Tez-tez qalmaqallarla gündəmə gələn gənc yazar Kəramət Böyükçölün döyülməsi xəbəri yayılıb. Bu barədə "Yeni Müsavat"a danışan gənc yazar hadisənin təfərrüatlarını aşağıdakı kimi anladıb: "Əslində, dalaşan mənim dostum olub. Sadəcə, o, cəmiyyətdə tanınmadığı üçün mənim adım hallandı. Kafedə oturub pivə içirdik. Telefonuma zəng gəldi, çölə çıxıb danışası oldum. İçəri qayıdanda gördüm ki, bir qrup adam yığışıb, pivə içdiyim dostumla mübahisə edir. Hər halda, bu adam mənimlə oturub, hansısa şəkildə onun yanında olmalıydım. Mən də belə etdim və dava əsnasında yüngül formada məni də ona qatdılar, mübahisə yarandı. Şikayət edəcək səviyyədə böyük bir şey olmayıb. O adamların bir qismi məni tanıyırdı, bir qismi isə yox".**



K. Böyükçöl bildirib ki, indiyə qədər sazı, şairləri tənqid etdiyinə görə onu onlarla adam "söhbətə çağırıb": "O qədər adam məni "söhbətə çağırıb", ancaq hamısını da hansısa formada yola vermişəm. Çünki bu, şəxsi dava olmayıb. Mənim bu adamlarla nə kimi problemim ola bilər? Bilirəm ki, məni davaya çağıranlar, düşüncəsini, təfəkkürünü tənqid etdiyim kütlənin nümayəndələridir. Onlarla nə danışacam ki? Orda-burda məni tuturlar, qəndə and içirəm, inanıb çıxıb gedirlər. Söhbətə getmirəm, sadəcə, yolda qabağıma çıxırlar. Başlayırlar, "qaqaş, sən onu nöş belə yazmışdun?" Deyirəm ki, qənd haqqı səhv eləmişəm. Onlar da deyirlər ki, "hə, brat, qəndə and içirsənsə onda inanırıq". Yəni açığını desəm, indiyə qədər qənd mənim köməyimə çox gəlib".

Böyükçöl söyləyib ki, bundan sonra Azərbaycanda oxucunun olmamasından şikayət etməyəcək: "Bir neçə gündür ki, parkda oturub, kitablarımı satıram. Özü də hər kitaba 10 manat qiymət qoymuşam. 3-4 gün ərzində mən 2 min manatdan çox kitab satmışam. Elə gün olub ki, 670 manatlıq kitab satılıb. Aprelin 13-də 340 manatlıq kitab satdım. Jurnalistlər də gəlirlər ki, məni yalan çıxarsınlar, görürlər ki, həqiqətən də oxucuların ardı-arası kəsilmir. Azərbaycanda yazıçı olduğumu ilk dəfə bu prosesdə hiss etdim. Növbəti, "Ana söyüşü" adlı kitabım da qısa zaman sonra çap olunacaq".

"Kitabına nə üçün bu cür adlar seçirsən" sualına isə K. Böyükçöl aşağıdakı kimi cavab verdi: "İnsanlara nə lazım olduğunu bilirəm. Ona görə də bu cür adlar seçirəm. Onu da deyim ki, sazı, yazıçıları, şairləri tənqid etməyimdə məqsədim tanınıb, kitab satmaq deyildi. Sadəcə olaraq, proses təbii şəkildə indiki halına gəldi. Dediyim sözlər həqiqi münasibətim idi. Düşünürdüm ki, insanlar nəticə çıxarsınlar. İndi bilmədim ki, nəticə çıxardılar, yoxsa yox. Ancaq gördüyüm odur ki, məni sevib, oxumağa başlayıblar. Mənim kitabımı alanlar qəndə and içib inandırdığım təbəqəyə gülənlərdir. Elə zənn edin ki, Mirzə Cəlil "Poçt qutusu" hekayəsini yazıb və adamlar da gəlib soruşurlar ki, doğruda da Novruzəli poçt qutusuna məktubu ata bilməyib? Məsələ ondan ibarətdir ki, Mirzə Cəlil öz xalqının düşüncəsini, təfəkkürünü yaxşı bilirdi. Başa düşürdü ki, onun xalqı poçt qutusuna məktub ata bilməyəcək səviyyədədir. Mən də bu cəmiyyətin düşüncəsinin, yalanlara qəndə and içməklə inandırmağın mümkünlüyü səviyyəsində olduğunu düşünüb, yazmışam". "Demək istəyirsən ki, sən bu dövrün Mirzə Cəlilisən" sualına isə "Mirzə Cəlildən qat-qat böyük yazıçıyam. Mirzə Cəlil öz dövründə mənim qədər məşhur, istedadlı, dildə-dişdə olan yazıçı deyildi. Bu mənada mən Mirzə Cəlildən qat-qat böyüyəm" deyib.

❑ Əli RAİS,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 79 (7249) 15 aprel 2019

**2017-ci ilin martından başlayaraq paytaxt Bakının əsas park və xiyabanlarında, o cümlədən Dövlət Bayrağı Meydanı, Dənizkənarı Milli Park, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisi, Bakı bulvarının "Ağ şəhər" ərazisi, "Sahil bağı" və Heydər Əliyev Mərkəzinin parkı, "Qış", "Hüseyn Cavid", "İzmir", "N.Nərimanov" parklarında, "Xaqani", "Sabir", "Axundov", "Səməd Vurğun", "Zabitlər" bağlarında "Pulsuz Wi-Fi" şəbəkəsi təmin edilib. İstifadəçi qoşulduğu andan etibarən 1 saat ərzində pulsuz internetdən maneəsiz yararlana bilir. Eyni istifadəçi gün ərzində 3 dəfə pulsuz xidmətdən faydalanmaq imkanına malikdir.**

# Pulsuz internet təhlükəsiz deyil, bəs nə edək...

## İctimai yerlərdə mühafizə olunmamış "Wi-Fi" şəbəkələri üzərindən onlayn alış-veriş etməyin, bank hesablarınıza daxil olmayın

Yay aylarında pulsuz internet xidmətindən istifadə edənlərin sayı çox olur.

"Pulsuz Wi-Fi" şəbəkəsinə insanların daha rahat qoşulması müasir sistem üzərindən həyata keçirilir. Xidmətdən istifadə etmək üçün müxtəlif konfiqurasiyalı mobil cihazın "Wi-Fi" siyahısından "Baktelecom"u seçib uyğun xanaya mobil nömrəni yazaraq, SMS-lə gələn şifri müvafiq xanaya daxil edib, internetə qoşulmaq mümkündür. SMS-lə qeydiyyat sistemi təhlükəsizliyin təmin edilməsinə hesablanıb və göndərilən şifrə ilə yalnız 1 (bir) cihazın pulsuz internetə qoşulması təmin olunur.

Bakıda nəqliyyatda da pulsuz internet təmin olunmağa başlayıb. Məsələn, "Xaliq Faiqoğlu" MMC-nin 18 və 85 saylı marşrut xətti üzrə avtobuslarda sərnişinlər bu xidmətdən yararlana bilirlər. Burada sərnişinlər bir dəfə qeydiyyatdan keçməklə istənilən vaxt (qeydiyyatdan keçdikləri cihazla) ödənişsiz internetə qoşula bilir.




Bəs sakinlər bu xidmətdən necə yararlana bilirlər?

"Səməd Vurğun" parkında mövcud vəziyyətlə bağlı maraqlandıq. Qeyd edək ki, parkda olduğumuz müddətdə çox saylı vətəndaşların pulsuz xidmətdən istifadə etdiyinin şahidi olduq.

Əli adlı Bakı sakini bu günə qədər ictimai yerlərdəki pulsuz internetdən yalnız bir neçə dəfə istifadə etdiyini bildirdi: "İlk dəfə iki il öncə Bakı Bulvarı ərazisində qoşula bilmişdim. Həmin vaxt internet çox rahat və sürətli idi. Lakin son vaxtlarda bir neçə dəfə buna cəhd etməyə çalışsam da, pulsuz internetə qoşula bilməmişəm. Bəlkə də istifadəçisi çoxdur deyə bu cür problem yaranır. Bu günlərdə isə mətbuatda ictimai yerlərdə pulsuz internetin təhlükəsiz olmadığı, diqqətli olmadıqda şəxsi məlumatların ötürülə bildiyini eşitdim. Buna görə pulsuz internet istifadəsindən çəkinirəm".

Aysel adlı paytaxt sakini isə şəhər mərkəzlərində olarkən mütəmadi olaraq pulsuz internetə qoşulduğunu bildirdi:

"Məlumatım var ki, pulsuz internetə qoşulduqda tənzimləmələri düzgün qurduqda, təhlükəsizliklə bağlı qaydalara riayət etdikdə heç bir problem olmur".

Parkda istirahət edən yaşlı nəslin nümayəndələrində də pulsuz internetə qoluşub-qoşulmadıqları barədə maraqlandıq. Ayaz Əliyevin dedikləri:

"Parklarda pulsuz internetin yaradılması haqda eşitmişik. Lakin ona necə qoşulmağı, ümumiyyətlə internetdən istifadə etməyi bacarmıram. Bunu daha çox gənclər edir. Parka əsasən istirahət etməyə gəlirəm. Ümumiyyətlə, gənclər də çalışmalıdır ki, internetdən bir qədər az, yalnız lazım olduqda istifadə etsinlər. Bu onların sağlamlığı üçün vacibdir".

İctimai yerlərdə pulsuz internetin təhlükəli olması məsələsinə gəldikdə, mütəxəssislər qeyd edir ki, tənzimləmələr düzgün qurulmadıqda, eyni şəbəkədə olan cihazlar, xüsusən də noutbuklar bir-birini görə bilir. Lakin təhlükəsizlik qaydalarına riayət etdikdə heç bir problem yaşanmır. Çünki ictimai yerlərdə internet tənzimləmələri elə qurulub ki, orada sadəcə bir tərəfli qaydada internet paylaşımı mümkündür.

Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:

"Pulsuz internet modellərindən istifadə etdikdə vətəndaşların cihazlarına müdaxilə edilə, şəxsi məlumatlar götürülə bilər. İstifadəçilər elementar təhlükəsizlik qaydalara əməl edirlərsə, məsələn, öz avadanlıqlarına daxil olan müxtəlif proqramları təmizləyir, antivuruslardan istifadə edirlərsə, təhlükəli vəziyyət yaranmır. Və yaxud, internet modelinə daxil olub-çıxanda müəyyən məqamlara diqqət yetirmək, şifrələrdən istifadə etmək lazımdır.

Bir məsələni də qeyd edim ki, pulsuz internetlə hər sayta giriş mümkün olmur. Amma hansısa resuslardan istifadə etdikdə çoxlu sayda reklamlar, spamlar gəlir. Elə etmək lazımdır ki, bu zaman gündəlik, işgüzar məsələlər üçün istifadə edilən e-maillərdən istifadə olunmasın. Yəni 2-3-cü dərəcəli e-maillərdən istifadə etmək daha yaxşı olardı".

Xatırladaq ki, bu günlərdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti vətəndaşları ictimai yerlərdə "Wi-Fi" şəbəkəsindən istifadə edərkən diqqətli olmağa çağırmışdı. Müraciətdə bildirilirdi ki, ictimai yerlərdə "Wi-Fi" texnologiyasından istifadə etməklə pulsuz olaraq internetə uzaq məsafədən bağlanmaq daha asan və rahat olsa da, bu, eyni zamanda, kompüterlərimizdə və ya telefonlarımızda saxlanılan fərdi məlumatlarımız üçün riskli ola bilər. Buna görə də ictimai yerlərdə "Wi-Fi" şəbəkəsindən istifadə edərkən təhlükəsizliyi təmin etmək üçün aşağıdakı qaydalara əməl etməyiniz tövsiyə olunur:

"İctimai yerlərdə mühafizə olunmamış "Wi-Fi" şəbəkələri üzərindən bank hesablarınıza və ya həssas fərdi məlumatlarınıza daxil olmayın.

- Kompüterinizi və ya mobil telefonunuzu ictimai yerlərdə nəzarətsiz qoymayın.

- İctimai "Wi-Fi" şəbəkəsindən istifadə edərək onlayn alış-veriş etməyin. Çünki onlayn alış-veriş sizdən bank hesab məlumatlarınız kimi həssas fərdi məlumatlarınızın daxil edilməsini tələb edir.

- Kompüterinizdə və ya mobil telefonunuzda avtomatik qoşulmanı söndürün. Bir çox kompüter və ya mobil telefonun simsiz olaraq avtomatik bir şəbəkədən digərinə qoşulmağa icazə verən qoşulma parametrləri mövcuddur. Bu funksiya rahatlığı təmin etsə də, cihazlarınızın mühafizə olmayan şəbəkələrə qoşulmasına şərait yaradır. Xüsusilə səyahət edərkən və ya tanımadığınız yerlərdə bu funksiyanın sönülü olmasını təmin edin.

- "Bluetooth" qoşulmasını nəzarətdə saxlayın. İctimai yerlərdə "Bluetooth" funksiyasının aktiv olması, kibertəhlükəsizliyiniz üçün böyük risklər yarada bilər. Bədniyyətli açıq "Bluetooth" siqnallarından istifadə edərək cihazınıza daxil olaraq fərdi məlumatlarınızı oğurlaya bilər.

- İctimai "Wi-Fi" şəbəkəsindən istifadə edərkən fərdi məlumatlarınızı mühafizə etmək üçün VPN xidmətindən istifadə edin. VPN ictimai "Wi-Fi" şəbəkəsi üzərindən göndərdiyiniz və ya aldığınız bütün məlumatları şifrləyir".

**❑ Xalidə GƏRAY,**
**Foto müəllifindir,**
**"Yeni Müsavat",**

# Kötük beyinlilər



**Sevinc TELMANQIZI**
**s.qurbanova@gmail.com**

**Yeniyetmə Elinanın intiharı ilə ortaya çıxan problemləri, yaraları bir-bir seyr etməklə məşğuluq. Baxmayaraq ki, bu hadisəyə qədər də bir çox məktəblilərin mənən intiharına, qətlinə şahidlik etmişdik. Amma bu, həyəcan təbili olar deyə ümid edirik. Təhsil sahəsində gözlənilən islahatlar üçün bir əcəl zəngi çalınıb deyə düşünək. Bir gündə, bir ayda yox, amma artıq bu hərəkətlənmə başlasın. Təbii ki, məktəb pəncərələrinin kilidlənməsi, məktəbliləri yaxınlaşan may-iyunda havasızlıqdan öldürmə tədbiri şəklində yox. Daha konseptual, daha məntiqli və daha funksional.**

O gün bir neçə rəy yayıldı sosial şəbəkədə. Biri də o idi ki, məktəbdə kişi müəllimlərin sayı artsa, bu, ümumi təhsil mühitini dəyişər. Hətta yazanlardan bəziləri təklifi daha da irəliyə apararaq bildirirdilər ki, məktəblərdə "kişi yumruğu", "kişi zəhmi" olmadığı üçün bu qədər əsnəklik, məktəblilərin bu qədər başına buyruqluğu yayılıb. Yəni, yenə şiddət, yenə yumruq, yenə güc... Pedaqogika sərhədlərindən minlərlə kilometr uzaqlıqda və bir qədər də seksist, cinsi ayrımı təbliğ edən bir yanaşma.

Əslindəsə məşhur lətifədəki ustanın sözü ilə desək, sistemə yanaşma fərqli olmalıdır. Yəni, sən bu gün kişi müəllimi 250 manat məvacibə məhkum etsən, ailəsinin yeganə gəlir qaynağı olan adamı stresə, nevroza, aqressiyaya sürükləmiş olacaqsan. O da bilməyəcək dərsdən sonra əlavə məşğələ qrupları yaradıb, ortabab qazanc əldə etsin, qrupuna gəlməyən uşaqla, onun valideyni ilə psixoloji savaşa girsin, yoxsa ümumən dərs desin. Bunun nəticəsi daha ağır olmayacaqmı? Yəni, bizim klişe halına gətirdiyimiz o məşhur "qadın müəllimələr daha çox vaxtını keçirmək üçün məktəbə gəlir" yanaşmamız bu halda yerlə-yeksan olacaq. Yəni, qadın müəllimələri hər nə qədər bir qayda olaraq, evinin nazlı xanımı, vaxtını öldürmək üçün dərs saatı alan varlıqlar kimi təqdim edəcəyiksə, bir o qədər də təhsilimiz seksist yanaşmanın qurbanı olacaq. Bir güllə bahar olmadığı kimi, qadınların yerinə kişilərin məktəbə gətirilməsi də heç bir dərdə çarə olmayacaq. Yaranın mənbəyi dezinfeksiya edilmədikcə, onun harda, nə vaxt üzə çıxacağı bilinməz.

Yara demiş, iki həftə əvvəl "Kazbek"li mahnı oxuyanı həbs etdilər, o kliplərin yayımı dayandırıldı. Amma iki gündür daha bir "kazbek, ley-pey, bomba, kayf"lı mahnı və onun əsasında klip çəkib oynayan qızlar peyda olub. O klipi youtube-da izləyəndə növbətisi "3 qızın daha bir videosu" olaraq qabağımıza çıxır. Yeddibaşlı əjdaha misalı, başlardan birini kəsirsən, yerinə o biri çıxır. Amma fakt budur ki, narkomaniyanın təbliğatını saman altından su yeridən kimi yeridirlər. Əxlaqsızlığı, əxlaqsız adamları gözümüzə-gözümüzə soxub, sonra da "bəyənmirsiz, baxmayın" tipli yekəbaşlıq edirlər. Kötük beyinlilərə izah edə bilmirsən ki, "biz neyləyək, baxırlar?" məntiqini əldə əsas tutsaq, sabah camaatın qabağına porno aktrisaları da, gecə traslarda dayanan qızları, "oğlanları" da eyni məntiqlə çıxarmalıyıq. Neyləyək ee, camaat baxır da, camaat istəyir dəəə.... Camaatın hər istədiyini etdiyinizə, hər arzuladığını nümayiş etdirdiyinizə əminsiz?

Çox nadir hallarda cəmiyyətin təpkisi ilə ölkədə böyük qərarların verildiyini görürük. Elina olayı bunlardan sadəcə biri idi. İnsanlar etiraz etdi, sosial şəbəkə yerindən oynadı, insanlar məktəbin qabağına tökülüşdü və faciənin miqyası böyüdükcə böyüdü. Hər kəs empati qurdu, balasını düşündü, Elinanın taleyini yaşaya biləcək övladını gözünün qabağına gətirib etiraz etdi. Məktəb tinlərində sülənən narkotik alverçilərinə, onların məktəblərdə yayılmasının qarşısına ala bilməyənlərə diş qıcadı. Çünki o məxluqlar ilk dəfələr şagirdləri öz tələlərinə çəkmək üçün tülkü hiylələriyinə əl atırlar: "bu tablet rahatlaşdırıcı, stresdən çıxarıcıdır. İmtahan qabağıdı, götür, bir neçə dənə at" deyirlər. Yeniyetmə alır, aludə olur, daha sonra başlanır pullu xidmət, asılılıq, narkotikanın yayılması, digərlərinin də cəlb olunması... Elinanın bəlası təkcə məktəb yoldaşlarının onu aşağılayıcı münasibəti və ya rus dilini bilməyən direktorun hətta şagird öləndən sonra onun barəsində şayiə yaymağı deyildi ki... Narkotikdən, siqaretdən asılı yeniyetmələr dayanırdı bu bəlanın kökündə. Məktəb, məktəbli həndəvərlərinin təmizlənməsi prosesi aparılmalıdır. Sözün bütün mənalarında. Əks halda, bu gün Elina, sabah bir başqası...

YENİ MÜSAVAT
N 79 (7249) 15 aprel 2019

## İsmayıllıda ağır qəza: 3 ölü

**İsmayıllı rayonunda ağır yol qəzası baş verib.**

"Report" xəbər verir ki, hadisə İsmayıllı-Lahıc-Dəmirçi yolunun 5-ci kilometrliyində, rayonun Əhən kəndi ərazisində baş verib. Lahıcdan Şamaxı istiqamətində hərəkət edən BMW markalı minik avtomobilinin sürücüsü nəqliyyat vasitəsinə idarəetməni itirib. Nəticədə avtomobil yolun kənarına aşıb.

Qəza nəticəsində Oğuz rayonu Padar kənd sakini, 1979-cu il təvəllüdlü Kərimov Kənan Səyyah oğlu, Abşeron rayonu Xırdalan şəhər sakini, 1986-cı il təvəllüdlü Əliyev İsa Rövşən oğlu və Masazır qəsəbə sakini, 1983-cü il təvəllüdlü Allahverdiyev Ramin Yaqub oğlu hadisə yerində ölüblər.

## Bakıda 19 yaşlı oğlan özünü asdı

**Aprelin 14-də səhər saatlarında Bakının Binəqədi rayonu ərazisində intihar hadisəsi baş verib.**

"Report" xəbər verir ki, 2000-ci il təvəllüdlü Rəsuli Rəhman İsfahani küçəsi, 11 ünvanında yerləşən həyət evində özünü asıb.

Faktla bağlı araşdırma aparılır.

## Qar uçqununa düşən hərbçilərdən birinin meyiti tapıldı

**Müdafiə Nazirliyinin qar uçqununa düşərək həlak olan hərbi qulluqçularından birinin nəşi doğulduğu Qazax rayonuna aparılıb.**

"Report" xəbər verir ki, ötən ay Müdafiə Nazirliyinin N saylı hərbi hissəsində xidmətdə olan Azərbaycan Ordusunun iki hərbi qulluqçusu - gizir Abdullayev Hafiz Məhəd oğlu və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Məmmədov Fərrux Fərman oğlu mövqe istiqamətində hərəkət edərkən qar uçqununa düşüblər. Aparılan axtarışlar nəticəsində onlardan birinin - H.Abdullayevin nəşi tapılıb.

Onun nəşi doğulduğu Qazax rayon Yuxarı Salahlı kəndinə aparılıb və kənd qəbiristanlığında dəfn olunub.

Hafiz Abdullayev ailəli idi, 3 övladı var. Qeyd edək ki, qar uçqununa düşən digər hərbçimizin axtarışları davam edir.

## İmişlidə öldürülən qadını morqa aparan şəxs bıçaqlandı

**Aprelin 13-də axşam saatlarında İmişli şəhərində qətl hadisəsi baş verib. "Report"un məlumatına görə, rayonun 1990-cı il təvəllüdlü Öləcələr kənd sakini Məmmədova Vahidə Mahmud qızı qətlə yetirilərək Araz çayı sahilinə atılıb. Daha sonra meyiti morqa gətirən 1994-cü il təvəllüdlü Qulubəyli kənd sakini Surxayzadə Anar Füzuli oğlu da bıçaqlanıb.**

İlkin məlumata görə, qadını rayonun Qulubəyli kənd sakini, 1994-cü il təvəllüdlü Seyidov Orman Nəriman oğlu qətlə yetirib. Meyiti gətirən sürücü A.Surxayzadəni isə qətlə yetirilmiş qadının əri Məmmədov Ümidvar Mustafa oğlu bıçaqlayıb.

Hadisənin hansı səbəbdən baş verdiyi hələlik məlum deyil.

Faktla bağlı araşdırma aparılır.

## Xaçmazda 58 yaşlı kişi göldə boğularaq öldü

**Xaçmazda 58 yaşlı kişi göldə boğularaq ölüb.**

Modern.az-ın məlumata görə, hadisə rayonun Qımıl kəndində baş verib. Ölən şəxs Qubanın Küpçalqışlaq kənd sakini Ərəbov İlham Mayıl oğludur. Faktla bağlı Xaçmaz rayon prokurorluğunda araşdırma aparılır.

# Ehtiyata buraxılan hərbi qulluqçu bələdiyyədən şikayətçidir

## Məlahət Yusifova: "Bu qədər süründürməçilik olarmı?!"

**Dövlət Sərhəd Xidmətindən yaşla əlaqədar ehtiyata buraxılmış hərbi qulluqçu Məlahət Yusifova məmur özbaşınalığından şikayətçidir. Vaxtilə Milli Təhlükəsizlik Nazirliyində, sonradan isə Dövlət Sərhəd Xidmətində, ümumilikdə 18 il qüsursuz xidmət etmiş M.Yusifova təqaüdə göndəriləndən sonra, nəhayət ki, kirayədə yaşamaqdan qurtulmaq qərarını verib.**

Bunun üçün təqaüddə olan hərbçi xanım "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanununun 12-ci maddəsinin 2-ci bəndinə müvafiq olaraq fərdi yaşayış evi tikmək üçün torpaq sahəsi ayrılması ilə əlaqədar Səbayel Bələdiyyəsinə dəfələrlə müraciət edib: "Ailəm böyükdür, ona görə də dövlətin hərbi qulluqçulara verilməsini qanunla təsbit etdiyi torpaq sahəsi alıb ev tikmək istədik. Səbayel Bələdiyyəsi isə bildirir ki:"...onlara aid torpaqların hüdudları, növləri, ölçüləri və elektron xəritəsinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilərək bələdiyyəyə təhvil verildikdən sonra sizə torpaq sahəsi ayrılması məsələsinə baxa bilərik". Baxmayaraq ki, qanunvericilikdə hərbi qulluqçunun müraciət etdikdən sonra 6 ay müddətində torpaq sahəsi almaq hüququ olduğu göstərilir, iki ildir ki, bizim müraciətlərə baxılmır. Bu gün hamımıza bəllidir ki, ölkəmiz bütün sahələrdə qadınların fəal iştirakı sayəsində çox irəli gedib. Bu faktlar danılmazdır. 18 ildən artıq silahlı qüvvələrdə hərbi xidmət keçmişəm. Həyatımı bu sahəyə həsr etmişəm və yaş həddinə görə ehtiyata buraxılmışam. Dövlətimizin qəbul etdiyi qanunlara müvafiq olaraq torpaq sahəsi almaq üçün müraciət etdiyim orqanlar məni get-gələ salıb. Sözün əsl mənasında bürokratizmlə məşğuldurlar. Bu qədər süründürməçilik olarmı?! Belə ki, müraciətlərə Səbayel Bələdiyyəsinin sədri Firdovsi Cəbrayılov bildirir ki, onlara aid torpaqların hüdudları, torpaq növləri, ölçüləri, habelə elektron xəritəsi müəyyənləşdikdən sonra mənə torpaq sahəsi ayrılmasına baxıla bilər. Bələdiyyələrlə İş Mərkəzinin rəis müavini isə mənə bələdiyyələrə aid qanunları xatırladır. O, qanunları mənə xatırlatmaqdansa, dəvət edib istəyimə əsasən başqa bir bələdiyyədən fərdi ev tikmək üçün torpaq sahəsi ayrılmasına göstəriş verə bilərdi. Əgər baş idarələrdə oturan böyük məmurlar qadınların hüquqlarını belə pozurlarsa, yerlərdə fəaliyyət göstərən kiçik məmurlardan nə gözləmək olar?! Bu məmurlar bilərəkdən və ya bilməmizlikdən mənə torpaq sahəsi ayrılmasında maraqlı deyillər".






Ehtiyatda olan hərbçi xanım ədliyyə naziri, ədliyyə general-polkovniki Fikrət Məmmədova da müraciət edib: "Xahiş edirəm ki, müraciətimə baxılmasını nəzarətə götürüb, köməklik göstərsin. Prezident Administrasiyasına, Bələdiyyələrlə İş Mərkəzə ünvanlanan məktublarım bələdiyyəyə yönləndirilir, onlar da eyni məzmunlu cavabı verirlər. Bələdiyyələrlə İş Mərkəzi isə ünvanladığı cavablarda bildirir ki, torpaq sahəsinin ayrılması ilə bağlı Ədliyyə Nazirliyinin hər hansı bir səlahiyyəti yoxdur. Bəs bələdiyyə ilə bağlı şikayətimizi hara bildirək?! Əminəm ki, dövlət rəhbərliyinin bu özbaşınalıqlardan xəbəri yoxdur".

M.Yusifova bələdiyyənin üzərinə ona torpaq sahəsi ayrılması öhdəliyinin qoyulması ilə bağlı 1 saylı İnzibati İqtisad Məhkəməsinə də müraciət edib. Lakin məhkəmə iddianı əsas olmadan rədd edib. Halbuki rəddetmə haqda qərarda da, hərbçilərə qanunla bələdiyyələrin torpaq sahəsi ayırması da vurğulanıb.

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Vətəndaş bankın onu intihar həddinə çatdırdığını deyir

**Rövşən Cavad oğlu İsmayılov "Xalq bank"ın qanunsuzluqlarına etiraz olaraq intihar edəcəyini deyir. "Yeni Müsavat"a müraciət edən vətəndaş bildirir ki, 2013-cü ildə biznesinin inkişafı üçün "Xalq bank"dan 40 min manat ipoteka yolu ilə kredit götürüb: "Banka qrafik üzrə 8 min 570 manat ödədim. Biznesimin inkişafı devalvasiya dövrünə düşdü, müflis oldum. "Xalq bank" həmin dövrdə Nərimanov Rayon Məhkəməsinə müraciət etdi. Bankın iddiasına hakim Raqib Qurbanovun sədrliyi ilə baxıldı. Məhkəmə qərarını qohumlarımın köməkliyi nəticəsində icra edə bildim. 38 min 806 manat 5 qəpik "Xalq bank"a olan borcumu Nərimanov rayon icra şöbəsinin böyük icra məmuru Elgiz Abduləzim oğlu Qəmbərova ödədim. İcra məmuru pulu bankın kassasına tam şəkildə ödədi, bizə bu haqda qəbz verdi. 10-15 gün keçdikdən kreditin təminatı olan evimizin çıxarışını da qaytarıb verdilər. Bank pulun ödəndiyini evin çıxarışını girovdan azad edib qaytarmaqla təsdiq etmiş oldu".**




Vətəndaş deyir ki, bundan sonra bank yenidən eyni məbləği ondan almaq üçün hərəkətə keçib: "Baş verənlər mənim səhhətimə olduqca ağır təsir edib. Ailəliyəm, 2 övladım var, ürək-damar xəstəliyindən əziyyət çəkən insanam. Ailənin yeganə qazanc mənbəyi biznesim idi. Müflis oldum, ailəm ağır duruma düşdü. Bu tərəfdən də "Xalq bank" eyni məbləği məndən 2-ci dəfə almağa çalışır, təmizlik kağızını vermir. Hakim Raqib Qurbanov isə öz növbəsində çıxardığı qərarı ləğv edib, mənim həyatımı alt-üst edib. Bu günə qədər bir çox instansiyalara müraciət etmişəm. "Xalq bank"ın özbaşınalığı, mənə qanunsuz şəkildə əzab-əziyyət verməsi heç də yaxşı bitməyəcək. Bu günə qədər bankların qanunsuz iddialarına görə bir neçə insanlar həyatına son qoyub, bunlardan biridə mən ola bilərəm. Xahiş edirəm ki, "Xalq bank"ın mənə qarşı qanunsuzluqlarına qarşı tədbirlər görülsün".

Vətəndaş redaksiyamıza təqdim etdiyi məhkəmə qərarları ilə də təsdiqlənir ki, o, banka borcunu qaytarıb. Belə bir halda bankı hansı əsasla vətəndaşdan eyni borcu 2-ci dəfə tələb etməsi anlaşılmır.

"Xalq bank" rəsmilərinin mövqeyini dərc etməyə hazırıq.

**❑ E.MƏMMƏDƏLİYEV "Yeni Müsavat"**

# Ucuz ev almağın və ya tikdirməyin şərtləri

## Dünyada yeni kampaniya - 1 avroya satışa çıxarılan evləri kimlər və niyə alır?



**Son illər dünyada daşınmaz əmlak qiymətlərində ciddi artım var. Bahalaşma, bəzən astronomik qiymətlər insanların ev sahibi olmaq arzusunu reallaşdırmağa imkan vermir. Amma bununla yanaşı, dünyanın bəzi bölgələrində əhali sayının kəskin azalması, demoqrafik böhran təhlükəsi bu sahədə ilginc kampaniyaların həyata keçirilməsinə səbəb olur. Necə ki, demoqrafik böhran yaşanan ölkələrdə hər doğulacaq yeni körpə üçün külli miqdarda uşaq pulu, mənzil kimi hədiyyələr vədi stimullaşdırıcı amil sayılır, bu da elə.**

Azərbaycan insanı da hər zaman ucuz ev, ucuz torpaq sahəsi ilə bağlı axtarış aparmağa meyillidir. Hətta tikintiyə icazə verilməyən ərazilərdə müxtəlif yollarla ev tikib, daha minimum vəsaitlə ev sahibi olmaq istəyi də bundan irəli gəlir. Amma internetdə aparılan gəzişmə göstərir ki, dünyanın ən səfalı, ekzotik yerlərində "su qiymətinə" evlər satılır. İlginc şərtlər və bir-birindən asan üsullarla...

**1000 nəfərlik əhali və təmiz hava udmaq üçün şans**

İtaliyada 2 bələdiyyə əhalinin sayına görə ciddi itki yaşadığı üçün ilginc bir kampaniyaya başlayıb. Onlar qəsəbələri canlandırmaq üçün başladıqları "1 avroya ev" layihəsində prosedurları sadələşdirdiklərini deyirlər.

"Yeni Müsavat" dünyada başlanan bu yeni axınla bağlı ən son məlumatları təqdim edir. "BBC Türkcə"nin yazdığına görə, Napoli yaxınlarındakı Zungoli və Siciliya adasındakı Mussomeli qəsəbələri bürokratiyadan və görmədikləri bir evi almaqdan çəkinən potensial müştərilər üçün İtaliyaya getməyə ehtiyac qalmadan alış-verişi internet üzərindən həyata keçirə bilmələri təmin edəcək saytlar qurub. 2015-ci ildə İtaliyanın ən gözəl qəsəbələrindən biri seçilən Apenin Dağlarındakı təxminən 1000 nəfərlik əhalisi olan Zungolinin bələdiyyə sədri Paolo Caruso deyib: "Alıcılara yardımçı olacaq və evləri yeniləmələri üçün dekorasiya şirkətləriylə ünsiyyət qurmalarını təmin edəcək özəl bir heyət formalaşdırdıq. Şəffaflıq üçün çox önəmli, amma insanlar gerçəkdən gəlib bu gözəlliyi görməli, ləzzətli yeməklərimizi dadmalı və bu sağlam, təmiz havanı udmalıdır".

**1 avroluq evə sahib olmaq üçün nə etməli?**

CNN-ə görə, Zungoli Bələdiyyəsindəki prosedurlar sıra ilə belə həyata keçirilir:

- Zungolinin rəsmi internet saytına girin: www.comunezungoli.it. (İtalyanca bilməyənlər üçün Google Tərcümədən yararlanmaq mümkündür)

- Sol sütundakı "Case in vendita a İ1." Bölümünə tıklayın. Buradan böyüklüyü 50-100 metr arasında dəyişən və çoxu ciddi təmirə ehtiyacı olan onlarla evdən ibarət bir siyahı var.

- Bəyəndiyiniz ev üçün müraciət formasını endirin. Bu mərhələdə evi 1- 3 il içində təmir etdirəcəyinizə təminat vermiş olursunuz. Bundan başqa, evin hansı məqsədlə istifadə olunacağını (məsələn ev, pansion, butik) bəyan etmək kimi bir öhdəliyiniz var.

- Şəxsiyyət vəsiqəsinin surəti və digər sənədlərin poçt və ya e-mail ünvanı ilə Zungoli Bələdiyyəsinə yollanması istənilir.

- Əgər planınız təsdiqlənirsə, bələdiyyə sizə müqavilə göndərir. Bundan sonra İtaliyaya gedib sövdələşməni imzalamaq lazımdır.

Evlər üçün 2000 avro depozit və təmir öhdəliyi verilməsi şərtlərdəndir. Təmirin bir neçə ay içində başlaması lazımdır. Depozit isə evin sənədləri hazır olandan sonra geri qaytarılır. Mussomeli Bələdiyyəsi isə satışa çıxardığı evlər üçün özəl bir internet saytı açıb: www.case-1euro.it

İngilisdilli saytda interaktiv xəritədə görülə bilinən evlər haqqında detallı məlumat verilir. Evlər e-mail və ya telefonla alına bilmir. Evi satın ala bilmək üçün Mussomeliyə getmək lazımdır. Saytdan lazımi formalar endirmək mümkündür. Əmlak ofisinin işçiləri sənədləşmə işlərinə yardım edir. Burada depozit 5.000 avrodur. Evin yeri və vəziyyəti nisbətən yaxşı olduğu halda, depozit məbləği 5000 avro və satışdan sonra ödənmək üzrə 400 avro vəsait nəzərdə tutulur.




**"Dünyadakı cənnət"də ev 1 avroya düşüb**

Sambuca Bələdiyyəsinin texniki ofisindən verilən açıqlamaya görə, hələ də satışda olan evlər bələdiyyənin internet saytında yer alır. Auksiona qatılmaq üçün saytdakı formaları doldurmaq lazımdır.

Təqribən 5800 nəfər əhalisi olan Sambuca Bələdiyyəsi 2016-cı ildə Rai kanalı tərəfindən təşkil olunan "Borgo dei Borghi" (Bölgələrin bölgəsi) adlı yarışmada İtaliyanın ən gözəl bölgəsi seçilmişdi. Tarixi Finikelilərə qədər gedən Sambuka bugünkü halı ilə 830-cu il həndəvərində ərəblər tərəfindən qurulub. O dövr Zabut olaraq adlandırılan qəsəbədə hələ də tarixi bir "Ərəb məhəlləsi" yerləşir. 1 avroya satışa çıxarılan evlərin bəziləri də məhz bu tarixi məhəllədə yer alır.

CNN-ə açıqlama verən Sambuca Bələdiyyəsi sədrinin yardımçısı Giuseppe Cacioppo deyib: "Sambuca əzəmətli şəhər olaraq bilinir. Bu məhsuldar torpaqlara "Dünyadakı cənnət" də deyilir. Tarixlə dolu, təbii bir rezervin içində yer alırıq. Ətrafımız möhtəşəm çimərliklər və dağlarla əhatəlidir".



Əhalinin azalmasına görə qəsəbənin xarabalığa dönməsinin qarşısını almaq üçün bayırdan gələcək insanlara ehtiyac duyduqlarını da bildirən Cacioppo "sevimli ərəb mirasımızı itirə bilmərik" deyib. Layihə keçən aprel ayında başlandığında İtaliyanın "Ansa" xəbər agentliyinə açıqlama verən Sambuca bələdiyyə sədri Leo Ciaccio da 1 avroluq ev layihəsinin yayılmasının ardınca həm İtaliyanın içindən, həm də xaricindən böyük diqqət gördüklərini demişdi.

Bu gün Venesuelada hətta möhtəşəm evlər də qəpik-quruşa satılır. Karib dənizindəki İsla-Marqarita adasında - hovuzu və bağı olan turist kompleksində ikiotaqlı yaşayış sahəsi 21 min dollaradır: Amerikadakı bir çox avtomobillərdən ucuz.

Karakasın El-Parasio rayonundakı 100 kvadratmetrlik mənzili isə 70 min dollara satırlar.

Halbuki ilkin satış qiyməti 250 min dollar olub. Ölkədəki vəziyyət mənzil sahiblərini gözləntilərindən vaz keçməyə məcbur edib.

Venesueladakı bir çox başqa mülk sahibləri kimi, onlar da ölkədən getməyi planlaşdırırlar. Mənzil satışıyla bağlı WhatsApp qruplarında elanlar əsasən bu şəkildə təqdim olunur: "Onlar köçüb gedirlər, geri qayıtmaq fikirləri yoxdur".

BMT-nin məlumatına görə, son illərdə Venesuelanı 3 milyondan çox vətəndaş tərk edib. Onlar xaricə yeni imkanlar tapmaq üçün gedirlər.

Ölkədən çıxanlar özlərindən sonra boş evlər qoyub gedirlər.

Ona görə də daşınmaz əmlakın satış qiymətləri aşağı düşüb.

Amerikanın "İdealab"şirkəti öz ucuz "WorldHaus" layihəsi ilə dünyanı evsizlik bəlasından xilas etmək istəyir. Şirkət dünya bazarına cəmi 10 günə tikilən və 1500 dollara başa gələn evlər təklif edir. Belə evləri inşa etmək üçün elə bir xüsusi bacarıq lazım deyil, adi divar ustaları bu işin öhdəsindən gələ bilərlər. Tikintidə yalnız xüsusi konstruksiyalı kərpicdən, armaturdan, sement və qumdan, o cümlədən polistrol dam panelindən istifadə edilir.

20 kvadratmetr sahəsi olan ev həddindən praktikdir və 3-4 nəfərlik ailənin rahat yaşamasına imkan verir, qışda isti və yayda sərindir. Xüsusi konstruksiyalı kərpiclər və dam örtüyü nəmi içəri buraxmır və yanğına da davamlıdır. Hər 1 metrdən kərpic divarın içinə şaquli şəkildə salınmış armaturlar tikilini zəlzələyə qarşı davamlı edir. Yəni bu evlər kiçik olsalar da yaşamaq üçün həddindən rahatdırlar.

"WorldHaus"da yer almış göstəricilərə görə, hazırda dünyanın inkişaf etməkdə olan ölkələrində 1,5 milyard adam, yəni Yer kürəsinin əhalisinin 21 faizi əllərinə gələn hər şeydən - tullantı taxtalardan, tənəkədən, sellofan təbəqədən və s. düzəldilmiş daxmalarda yaşayırlar. "Idealab" 2020-ci ilə kimi bu ev dəstindən bir neçə milyon satmaqla həmin insanların bir qismini ev sahibi eləməyə çalışır. Eni təxminən 4 metr və uzunu 5 metr olan bu ev layihəsinin en və uzunluğunu 7 metrə qaldırmaqla 3 otaqlı və Azərbaycan ailəsi üçün də rahat olan mənzillər inşa etmək olar. Belə mənzildə hər birinin sahəsi 10,2 kvadratmetr olan 2 yataq otağı, sahəsi 16 kvadratmetr olan zal-mətbəx, sahəsi 2,52 kvadratmetr olan vanna otağı və sahəsi 1,68 kvadratmetr olan giriş dəhlizi yerləşdirmək mümkündür. Azərbaycanın regionlarında tikilən ənənəvi evlərə çox bənzəyən bu tikililəri qışda qızdırmaq da asan olar və bunun üçün bir soba da yetərlidir...

**Bu evlər 300 dollardan ucuz başa gəlir**

Bu arada hindistanlı alimlər inqilabi innovasiyanı həyata keçirməyə hazırlaşırlar. Alimlər kvadratmetri 14 dollardan ucuz başa gələcək evin layihəsini hazırlayırlar. Professor Vicay Qovindaracan keçən il bildirmişdi ki, 300 dollardan ucuz başa gələcək ev tikmək olar. İnvestisiya fondlarından biri isə bu məsələnin ən yaxşı həllini tapacaq şəxsə 25 min dollar vəd etmişdi. Keçirilən müsabiqədə "Mahindra Partners" şirkəti qalib gəlmişdi. Bu şirkətin mütəxəssisləri 21 kvadrat metr sahəyə malik evin tikinti layihəsini təqdim ediblər. Torpağın qiyməti nəzərə alınmamaq şərtilə ev 293 dollara başa gələcək. Həmin evlər milyonlarla yoxsul insanın həyat şəraitini yaxşılaşdırmaqla yanaşı, dəyəri 375 milyard dollara çatacaq yeni biznes sektorunun yaranmasına səbəb olacaq.

**2000 dollara və 2 saata tikilən evlər də var**

Yaponiyada isə paduqadan 2 saata ev tikilir. Bu evlər çox ucuz başa gəlir və 300 il normal vəziyyətdə qala bilir. Qapı və pəncərələr paduqaların arasında yerləşdirilir. Qiyməti təxminən 2000 dollar olan bu evlər dünyanın ən ucuz evləri hesab edilir. Tikililərin belə qısa müddətdə ərsəyə gəlməsi və davamlı olması gələcəkdə bu tip evlərin sayının artacağından xəbər verir...

Gallerdə yaşayan Simon Dale təbiətin ortasında həm gözəl, həm də ucuz ev inşa edib. Dale möhtəşəm təbiətin içində tikdiyi ev üçün 5000 dollardan daha az pul xərcləyib. Dale tikintisi 4 ay davam edən bu evdə hazırda ailəsi ilə birlikdə yaşamağa davam edir.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 79 (7249) 15 aprel 2019



# Pişiyi paltaryuyan maşında yudular, sağ qaldı

Altı aylıq pişik Poppi paltaryuyan maşında yarım saat yuyulandan sonra sağ qalıb. Bu barədə "ABC News" saytı heyvanın sahibinə istinadən xəbər verir. Avstraliyalı Kim Barr pişiyin çirkli paltarlarla dolu yeşikdə yatmasından xəbərsiz bütün yeşiyi paltaryuyan maşının içinə boşaldıb. Bir müddət sonra ailə fərq edib ki, Poppi yoxa çıxıb. "Biz bütün evi ələk-vələk etdik, amma onu tapa bilmədik"- bunu da pişiyin sahibəsi deyib. Təsadüfən pişiyi on dəqiqəlik yuyulma prosesindən sonra paltaryuyan maşının içində tapdılar. Onu dərhal veterinara aparıblar. Heyvanın başında zədə və gözlərində problem aşkarlanıb. Bundan başqa, Poppinin temperaturu da normadan xeyli aşağı olub, ciyərinə isə su yığılıb. Amma bununla belə, onda hər hansı qırıq, çıxıq və sınıq olmayıb. Baş vermiş hadisədən üç həftə sonra Poppinin vəziyyəti normala dönüb və evə qayıdıb. "O, möcüzə pişikdir. O, əlahiddə pişikdir və özəldir", - bunu da Barr deyib.

Buna bənzər hadisə 2011-ci ildə Şotlandiyada baş verib. Şahzadə ləqəbli pişik paltaryuyan maşının içinə girib və orda sağ qalıb. Pişiyin burnundan qan açılmışdı və yuyucu tozun təsirindən gözlərini aça bilmirdi. Buna baxmayaraq, daha sonra heyvan bərpa olundu.

# Kök qadın arıqlardan daha az qazanırmış

Tədqiqatlar göstərir ki, şişman qadınlar kök kişilərə nisbətən, daha çox ayrı-seçkiliyə məruz qalırlar. Exeter Universitetinin alimləri, artıq çəkili qadınlara təqdim olunan imkanların daha az olduğunu və onların daha az pul qazana bildiklərini müəyyənləşdiriblər. Onlar, 40 və 70 yaş arası 120 min Britaniya Biobank iştirakçısının, bədən kütləsi indeksinə aid 70 genetik fərq aşkar ediblər. kök adamlar ixtisaslı olduqları halda belə, iş tapmaqda çətinlik çəkirlər "Qadını kök edən genetik fərq, həm də onu bir az kasıb edir," insan genetikası üzrə professor,



Tim Frayling söyləyib.

Araşdırmaya əsasən, başqa səbəblə deyil, sırf genetikaya görə 6 kq kök olan qadınlar, eyni hündürlükdə və daha arıq qadınlara nisbətən, ildə 1867 dollar daha az qazanırlar.

# Çılpaq qadın öncə polisdən yardım istəyir, sonra onun maşınını qaçırdır

Amerikanın Arizona ştatında lüt qadın polis maşınını oğurlayıb. Hadisə şerifin sinəsindəki kamera vasitəsilə qeydə alınıb. Videoda qeyd olunur ki, çılpaq bir qadın yanacaqdoldurma məntəqəsində polis maşınının qabağından keçir. Polis maşını dayandıranda isə o, zorlanma qurbanı olduğunu xəbər verir. Qadına yardım etmək üçün maşından düşən və baqajdan odeyal götürmək istəyən polis bu dəfə şok mənzərə ilə qarşılaşır. Çılpaq qadın sürücü sükanının arxasına keçir və son sürətlə ordan uzaqlaşır. "FOX 10" xəbər verir ki, polis 1 saata yaxın qadını təqib edib. Saatda 160 kilometrlə hərəkət edən qadın nəhayət saxlanıb. Bu məqamda isə anlaşılıb ki, o, güclü narkotikin təsiri altındadır. Onun təcavüzə uğraması iddiası isə öz təsdiqini tapmayıb.

Qadına isə polis maşınını qaçırma, polisin əmrinə tabe olmama, yalan ifadə vermə... kimi bir neçə ittiham yönəldilib.




# Xəmirin üzərindən hoppandığı üçün işdən qovuldu

"Jimmy John's" restoranının işçisini çox qəribə hərəkətinə görə işdən çıxarıblar. Belə ki, o, xəmirdən uzun ip hazırlayaraq, onun üstündən bir neçə dəfə hoppanıb. Bu barədə lenta.ru saytı "Huffington Post"a istinadən yazıb. Qalmaqala səbəb isə bu videonun internetdə yayılması olub. Həmin videoda önlük geyinmiş gənc adamın xəmir yayması, daha sonra onu ip formasına gətirib, üstündən necə hoppanması səhnəsi yer alıb. Hadisə Florida ştatındakı Ceksonvil şəhərində baş verib. Videorolik öncə facebooka, ardınca isə KİV-ə yayılıb. Jimmy John's restranı sahibləri isə ictimaiyyəti inandırmağa çalışıblar ki, işçilərinin üzərindən ip kimi hoppandığı xəmir istifadəyə yararsız və atılmış xəmir idi: "Biz də belə hərəkəti bəyənmir və lazımi tədbirlər görürürk ki, təkrarlanmasın".

Bu olaydan sonra isə restoranda aparılan yoxlama nəticəsində ortaya 17 pozuntu çıxıb.




**QOÇ** - Çıxardığınız qərarlara məsuliyyətlə yanaşın. Əgər öz vəzifələrinizi dərk etsəniz, uğurlara yaxın olacaqsınız. İş yerində isə həmkarlarınızla münasibətləri mülayimləşdirməyə çalışın.

**BUĞA** - Bəxtinizdə uğurlu bir gün durur. Təzə xəbər eşidəcəyinizə təminat verən ulduzlar maddi durumunuzda irəliləyişlərin olacağını da istisna etmir. Kiminsə xətrinə dəyməyə çalışmayın.

**ƏKİZLƏR** - Bu şıltaq təqvimdə hər bir məsələyə ciddi şəkildə yanaşmalısınız. Hər hansı zarafat və ya qeyri-səmimilik vəziyyəti poza bilər. Başlıca vəzifəniz informasiya toplamaq olmalıdır.

**XƏRÇƏNG** - Hər şeydən əvvəl maliyyə məsələləri barədə düşünün. Hətta buna görə digər planlarınızı təxirə də salmaq olar. Günün ikinci yarısında ciddi sövdələşmələrdə iştirakınız gözlənilir.

**ŞİR** - Əsas gücünüzü fəaliyyət prinsipinə yönəldin. Aldığınız təklifləri dönə-dönə nəzərdən keçirin. Bütün görüş və danışıqlarda təşəbbüskarlığı əldən verməyin. Qarşınızda yeniliklər durur.

**QIZ** - Əzmkarlığınızı artırmaqla nüfuz dairənizi genişləndirə bilərsiniz. Bu arada uzaqda yaşayan doğmalarınızla mütləq əlaqə saxlayın. Maddi durumunuz imkan versə, səfərə də çıxmaq olar.

**TƏRƏZİ** - Bütün vacib planlarınızı təxirə salın. Çünki bu təqvim qlobal məsələlərin həlli üçün uğurlu deyil. Üstəlik, axşama yaxın mübahisəli situasiyalara da cəlb oluna bilərsiniz.

**ƏQRƏB** - Marsın aktivliyi sizə mütləq təsir edəcək. Ünsiyyətdə olduğunuz insanların əksəriyyətinə qarşı münasibətləri ılıqlaşdırmağa səy göstərin. Xoş təsadüflər və qonaqlıqlar da gözlənilir.

**OXATAN** - Günün ümumi mənzərəsi qənaətbəxşdir. Çox iş görmək olar. Kobudluq göstərməyin. Hər addımı vaxtında atmağa çalışın. Təzə xəbər və şəxsi büdcənizdə artım da gözlənilir.

**OĞLAQ** - Risk etməkdən qorxmayın. Əmin olun ki, qarşınızda duran maneələri yalnız cəsarətli olmaqla aradan qaldıra bilərsiniz. Sağlamlığınıza qayğı göstərməyi də unutmayın. Axşam tez yatın.

**SUTÖKƏN** - İxtiyarınızda olan bu təqvim ümumi məziyyətlərinə görə ürəyinizcə olsa da, ötən dövrün sıxıntıları bu ovqata müəyyən gərginlik qatacaq. Əsas enerjinizi sevgiyə ayırmaqla rahatlıq tapa bilərsiniz.

**BALIQLAR** - Üzərinizə götürdüyünüz öhdəlikləri yerinə yetirmək üçün mütləq kimdənsə dəstək almalısınız. Odur ki, ümid bağladığınız hər kəsə üz tutmağınız məsləhətdir. Hər hansı risk yolverilməzdir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Səhnədə insult xəstələrini doladı və öldü...

Britaniyalı stendapçı Yan Koqnito insultla bağlı zarafat edəndən sonra səhnədə dünyasını dəyişib. Bu barədə "Daily Mail" nəşri xəbər verib. İnsident 11 apreldə Atic barda keçirilən komediya tədbirində baş verib. Stendapın gedişi sırasında Koqnito zarafat edib ki, o, insultdan oyananda yeni bir dildə danışa bilər. Aradan 10 dəqiqə keçəndən sonra o, stulda oturub və bir neçə dəqiqə oradan qalxmayıb. Tamaşaçılar onun bu hərəkətini zarafatın davamı kimi qəbul ediblər və heç ağıllarına gəlməyib ki, təcili yardım çağırmaq lazımdır. Bir neçə dəqiqə sonra ona təcili yardım çağırıblar. Hadisə yerinə gələn həkimlər onun ürək tutmasından dünyasını dəyişdiyini təsdiqləyiblər. Komik öz karyerasına 1980-ci illərdə başlayıb. 1999-cu illərdə ən yaxşı stendap-komik kimi Time Out Award mükafatını qazanıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.190